# TİKİNTİNİN İQTİSADİYYATI VƏ MENECMENT
## ELMİ-PRAKTİKİ JURNAL

**TƏSİSÇİ:**
**AZƏRBAYCAN MEMARLIQ VƏ İNŞAAT UNİVERSİTETİ**

**№ 3 - 2017**

# ЭКОНОМИКА СТРОИТЕЛЬСТВА И МЕНЕДЖМЕНТ
## НАУЧНО-ПРАКТИЧЕСКИЙ ЖУРНАЛ

**УЧРЕДИТЕЛЬ:**
**АЗЕРБАЙДЖАНСКИЙ АРХИТЕКТУРНО-СТРОИТЕЛЬНЫЙ УНИВЕРСИТЕТ**

**№ 3 - 2017**

# CONSTRUCTION ECONOMYCS AND MENECMENT
## SCIENTIFIC AND PRACTICAL JOURNAL

**PUBLISHED BY:**
**AZERBAIJAN ARCHITECTURE AND CONSTRUCTION UNIVERSITY**

**№ 3 - 2017**

**B A K I – 2017**

**REDAKSİYA HEYƏTİ/**
**РЕДАКЦИОННЫЙ СОВЕТ/ EDITORIAL BOARD**

**Baş redaktor:** **Məmmədov M.A. –** i.e.d., professor

akademik **Səmədzadə Z.Ə.,** akademik **Əliyev F.A.**, akademik **Əliyev T.A.,** AMEA-nın müxbir üzvü **Musayev A.F., Mehdiyev İ.Ə., Hüseynov T.H.**, **Xəlilov H.A.**, **İsgəndərov R.K., Əliyev Ə.B.**, **Ahmet Kemal Çələbi** (Türkiyə), **Mustafa Miynat** (Türkiyə), **Smeriçevskiy S.** (Ukrayna), **Səfərov Q.Ə**, **Vəliyev V.M.**, **Jerald Naro (Fransa), Əliyev T.Ş. (İsveçrə), Əliyev Ə.M.** (redaktor müavini), **Qəribov R.T**., **Ağayev A.M.**, **Hacıyev Ə.V.**, **Pərham H.Ə.** (İran İslam Respublikası), **Yusifov E.M.**, **Ələkbərova L.Ə.** (məsul katib)

*Ölkə iqtisadiyyatının sahələri üzrə aparılan tədqiqat işlərinin və alınmış nəticələrin geniş oxucu kütləsinə çatdırılması məqsədilə Azərbaycan Memarlıq və İnşaat Universitetin Elmi Şurasının qərarı ilə "Tikintinin iqtisadiyyatı və menecment" elmi-praktiki jurnal təsis edilmişdir. Jurnal Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Mətbuat nəşrlərin reyestrinə 02.12.2015-ci il tarixində 4024 nömrəsilə daxil edilmişdir. "Tikintinin iqtisadiyyatı və menecment" elmi-praktiki jurnalı ildə 4 dəfə nəşr edilir. Jurnalda azərbaycan, rus və ingilis dillərində məqalələr dərc olunur. Jurnal Universitetin "Xidmət sahələrinin iqtisadiyyatı və menecment" kafedrası tərəfindən hazırlanır və çapa təqdim edilir.*



**“İQTİSADİYYATI GÜCLÜ OLAN DÖVLƏT HƏR ŞEYƏ QADİRDİR”**

**HEYDƏR ƏLİYEV**



**“BİZ GƏLƏCƏYİMİZİ ŞAXƏLƏNDİRİLMİŞ İQTİSADİYYATDA GÖRÜRÜK”**

**İLHAM ƏLİYEV**

**M.A.Məmmədov**
*i.e.d., prof. AzMİU*
**N. Ramazanlı**
*t.e.n. Bakı Dövlət Universiteti*

# TİKİNTİDƏ İNVESTİSİYA FƏALİYYƏTİNİN VƏ STRUKTURUNUN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN METODOLOJİ PRİNSİPLƏRİ

**Xülasə**

*Məqalədə iqtisadi fəaliyyətin dövlət tərəfindən tənzimlənməsi məsələsi ətrafında diskussiyalar, iqtisadi həyatın dövlət tərəfindən tənzimlənməsində iştirakı məsələsinə münasibətdə müxtəlif iqtisadi məktəblərdə fərqli fikirləri, həmçinintikintidə investisiya fəaliyyətinin dövlət tənzimlənməsinin metodoloji prinsipləri nəzərdən keçirilir. Eyni zamanda dünya praktikasına əsaslanaraq milli iqtisadiyyata və tikinti sferası da daxil olmaqla onun ayrı-ayrı sektorlarına investisiyaların cəlb edilməsi komponentləri dəyərləndirilir.*
***Açar sözlər:*** *investisiya, tikinti, tikinti iqtisadiyyadiyyatı, prinsiplər, nəzəri metodologiya*

## Giriş

İqtisadi fəaliyyətin dövlət tərəfindən tənzimlənməsi məsələsi ətrafında diskussiyalar artıq bir neçə əsrdirki aparırlar, qeyd etmək lazımdır ki, həmin polemikalar bu gündə öz aktuallığını saxlamaqdadır. Burada müzakirələr predemti və polemikalar kimi iqtisadi artıma və iqtisadi inkişafa nail olmaq üçün təsir üsul və formaları nədən ibarət olmalıdır məsələsi bağlıdır..

İqtisadi həyatın dövlət tərəfindən tənzimlənməsində iştirakı məsələsinə münasibətdə müxtəlif iqtisadi məktəblərdə fərqli fikirlər səslənmişdir: merkantilizm (T.Men, A.Monkretyen), klassik siyasi iqtisad (A.Smit), marksist məktəb (K.Marks), keyns məktəbi (C.Keyns), monetraizm (İ.Fişer, M.Firdman). Qeyd etmək lazımdır ki, merkantilistlər ölkənin sərvəti mənbəyini dövriyyə sferası ilə əlaqələndirirdilər və hesab edirdilər ki, dövlət iqtisadi həyata ancaq ixracın mükaftlandırılması və ölkə istehsalçılarını idxal sazişlərinin təzyiqindən qoruması ilə təsir göstərə bilər [3].

Klassik siyasi iqtisadın nümayəndəsi A.Smit hesab edirdi ki, dövlət iqtisadı azadlığı, insan həyatı və mülkiyyətin qorunmasını, münaqişələrin həll olunmasını təmin etməlidir, yəni insanların müstəqil olaraq qeyri səmərəli yerinə yetirdikləri işləri ancaq dövlətə həvalə etmək olar.

Keyns məktəbinin nümayəndələri hesab edirlər ki, dövlət iqtisadiyyata fəal müdaxilə etməlidir. Monetarist məktəbinin nümayəndələri isə iqtisadi proseslərə, xüsusən də təkrar istehsal, yığım və s. dolayısı üsullarla təsir göstərməsini vacib sayırlar.

Göründüyü kimi, iqtisadiyyata dövlətin müdaxiləsi və yaxud dövlət tərəfindən tənzimlənməsi məsələsi demək olar ki, bütün tarixi inkişaf mərhələlərində bir daha öz təsdiqini tapmışdır.

## 1. Tikinti sektorunda dövlətin investisiya proseslərinə təsiri

Dövlətin investisiya proseslərinə təsiri necə olmalıdır və tikinti sektorunda bu məsələ necə öz həllini tapmalıdır. Məsələyə aydınlıq gətirilməsi üçün öncə diqqətin investisiya prosesinin dövlət tərəfindən tənzimlənməsi anlayışına yönəldilməsi yerinə düşərdi. Qeyd etmək lazımdır ki,

dövlətin investisiya prosesini tənzimləməsi dedikdə -qanunverici, icraedici və nəzarət xarakterli və dövlətin səlahiyyətli orqanları tərəfindən həyata keçirilən, investisiya fəallığının stimullaşdırılmasına, həmçinin bu əsaslar üzərində iqtisadi artıma yönəldilmiş təbirlər sistemi başa düşülür.

Dünya praktikasına əsaslanaraq milli iqtisadiyyata və onun ayrı-ayrı sektorlarına investisiyaların cəlb edilməsi üçün müəyyən komponentlərin mövcudluğu təsbit olunmuşdur. Bunlar aşağıdakılardır:

- ✓ investisiya informasiyası;
- ✓ investorlar;
- ✓ investisiya ərazisi;
- ✓ investisiya fəallığı,
- ✓ investisiya layihəsi,
- ✓ investisiya mədəniyyəti;
- ✓ investisiya mənbələri;
- ✓ investisiya obyektləri;
- ✓ investisiya resursları.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında investisiya fəaliyyəti mülki və vergi kodeksləri, səhmdar cəmiyyətlərin, özəlləşdirmə, xarici iqtisadi fəaliyyətin, taarif nəzarəti və s. ilə əlaqədar qəbul edilən müvafiq qanunvericilik aktları ilə tənzimlənir.

Müvafiq olaraq, diqqəti Azərbaycan Respublikasında investisiya fəaliyyətini tənzimləyən qanunlar diqqəti cəlb edir: Azərbaycan Respublikası Prezidentinin 13 yanvar 1995-ci il tarixli 952 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu" və Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 1992-ci il tarixli 57 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Xarici investisiyaların qorunması haqqında" Azərbaycan Respublikası Qanunu. Yuxarıda qeyd edilən qanunvericilik aktları və sonradan həmin qanunlara edilmiş əlavələr əsasında dövlət tənzimlənməsi aşağıdakı məzmun və tərzdə həyata keçirilir:

- dövlət investisiya proqramlarına müvafiq olaraq;
- dövlət investisiyalarının birbaşa idarə olunur;
- vergi güzəştləri və imtiyazlarında diferensial sistem tətbiq edilir;
- ayrı-ayrı istehsal sahələri və ərazilərin inkişaf etdirilməsi üçün dotasiya, subsidiya, subvensiya və büdcədən borcların verilməsi nəzərdə tutulur.
- maliyyə və kredit siyasətinin, qiymət siyasəti (qiymətli kağızların buraxılması) həyata keçirilir;
- dövlət norma və standartlarına əməl olunmasına nəzarət edilir;
- antiinhisar tədbirləri görülür;
- investisiya layihələrinin ekspertizası aparılır.

Deyilənlərlə yanaşı investisiya siyasətinin prinsiplərinə də diqqətin yetirilməsi yerinə düşərdi:

- iqtisiadiyyatın ayrı-ayrı sektorlarına yatırılan investisiyaların səmərəliliyini yüksəldən faiz dərəcələrinin tətbiqi;
- sadə vergi sistminin qurulması;
- təkmilləşdirilmiş amortizasiya siyasətinin həyata keçirilməsi;

- investisiya cəlbedciliyinin yüksəldilməsinə xidmət edən zəruri tədbirlərin həyata keçirilməsi;
- əhalinin əlində olan, dövriyyədən kənar vəsaitlərinin investisiya yatırımlarına çevrilməsi üçün müvafiq tədbirlərin reallaşdırılması;
- investisiya qoyuluşlarına dövlət zəmanətinin verilməsi;
- təyinatı və ayrılması məqsədinə uyğun büdcə vəsaitlərindən istifadə edilməsinə dövlət nəzarət mexanizmlərinin təkmilləşdirilməsi [1, s.20].

Müasir iqtisadi ədəbiyyatlarda investisiya siyasətlətinin müxtəlif təsnifatları verilməkdədir və onların içərisində idarə edilmə tipinə əsasən aparılan təsnifat daha çox diqqəti cəlb edir. Bu xüsusda qeyd edilməsi yerinə düşərdi ki, idarə edilmə tipinə əsasən iki tip, liberal və mərkəzləşdirilmiş investisiya siyasətləri diqqəti cəlb edir. Liberal investisiya siyasəti üçün iqtisadi idarə etmə üsullarından, mərkəzləşdirilmiş investisiya siyasətində isə birbaşa, inzibati üsullardan istifadə olunması əsas və mühüm xarakterik xüsusiyyət kimi qeyd olunmalıdırektlərinə dövlətin, idarəetmə orqanlarının tənzimləyici təsir göstərməsi tələb olunur [1, s.12-13].

Bəzi tədqiqatçılar iddia edirlər ki, dövlət büdcəsindən xərclənən vəsaitlərin verimlilik effektini qeyri qənaətbəxş hesab etmək olar. Digər vacib məsələ investor qismində dövlət büdcəsi vəsaitləri ilə yanaşı institusional subyektlərin də bu istiqamətdə fəaliyyəti xüsusi olaraq qeyd olunmalıdır. Müasir dövrdə dünya praktikasında əsas institusional investorlar qismində aşağıdakıları qeyd etmək olar.

1) investisiya şirkətləri,
2) müxtəlif fondlar və o cümlədən pensiya forndları;
3) sığorta şirkətləri;
4) digər institusional şirkətlər (vəqf və xeyriyyə fondları)

Nəzərə almaq lazımdır ki, tikinti sahəsi mürəkkəb, çox səviyyəli sistemdir, səmərəli fəaliyyət göstərməsi üçün təsərrüfat subyektlərinin spesifikası mütləq nəzərə alınmalıdır [4]. Müasir dövrdə Azərbaycan Respublikasında tikinti sənayesinin fəaliyyətinin birbaşa tənzimlənməsi ancaq büdcə maliyyələşdirməsi formasında, dolayısı üsullarla tənzimlənməsi isə, zənnimizcə, üç əsas istiqamət üzrə həyata keçirilməlidir:

- tikinti kompleksi müəssisələrinə yeni iqtisadi təsir mexanizmlərinin hazırlanması;
- tikinti kompleksində islahatların və struktur dəyişikliklərin aparılması;
- iqtisadiyyatın dövlət sektoruna nəzarət və tənzimləyici fəaliyyətin güclənməsi.

Tikinti sənayesində investisiya fəaliyyətinin dövlət tənzimlənməsinə, ölkədə sözügedən sahədə vahid elmi-texniki, iqtisadi, sosial siyasətin həyata keçirilməsinə yönəldilmiş tədbirlər kompleksi nəzərdə tutulur. Belə layihələr dövlət, yerli büdcələr və şəxsi vəsaitlər hesabına maliyyələşdirilir. Qeyd etmək lazımdır ki, investisiya yatırımları bir qayda olaraq, ictimai tələbatın ödənilməsinə, xalq təsərrüfatının strateji sahələrinin inkişafına yönəldilir və tikinti sənayesi həmin sahələr içərisində mühüm yerlərdən birini tutur.

Mühüm məsələlərdən biri kimi, ölkəyə xarici investisiya qoyuluşlarının artırılması və dövlət tərəfindən tənzimlənməsinin də xüsusi əhəmiyyəti vardır. Qeyd etmək lazımdır ki, dövlət tikinti sektorunda investisiya qoyuluşlarının tənzimlənməsi üçün daha çox iqtisadi mexanizmlərdən istifadə etməlidir.Bunların bəziləri aşağıdakılardı[2]:

- vergitutma obyekti və subyektləri, vergi dərəcə və güzəştlərinin fərqli olduğu vergi sistemindən istifadə olunması;
- tikinti sektorunda kredit və amortizasiya siyasətinin münasib güzəşt tədbirləri ilə tətbiqi;

- regional və sahə istehsalçılarının, bütünlükdə tikinti subyektlərinin işgüzar fəallıqlarının artırılması üçün subvensiya, subsidiya və büdcədən digər formalarda maliyyə vəsaitlərinin verilməsi;
- tikinti sektoruna investisiya yatırımlarının həyata keçirilməsi üçün dövlət tədbirlərinin prosedura qaydalarını təsbit edən xüsusi norma və standartların hazırlanması;
- investisiya layihələrinin ekspertizasının təşkili və s.

Müasir dövrdə bazar iqtisadiyyatı münasibətlərinin getdikcə daha çox dərinləşdiyi bir şəraitdə ən mühüm vəzifələrdən biri də müəssisələrdə və o, cümlədən mülkiyyətin təşkilati-hüquqi formasından asılı olmayaraq, tikinti sənayesi müəssisələrində investisiya fəaliyyəti üçün daha əlverişli şəraitin yaradılmasına nail olunmasıdır və burada ən mühüm yeri investorların maraqlarının qorunmasına xüsusi diqqətin yetirilməsi tutur. İqtisadi tənzimləmə baxımından dövlətin investisiya fəaliyyətini tənzimlənməsi dövlət hakimiyyəti orqanlarının investisiya prosesinin tənzimlənməsi üçün normativ, metodoloji, tənzimləyici, stimullaşdırıcı əsasın yaradılması başa düşülməlidir. Bütün bunlar isə ondan xəbər verir ki, investisiya fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi alətləri mütləq təkmilləşdirilməlidir, iqtisadiyyatın və cümlədən onun tikinti sektorunun modernləşdirilməsi üçün innovasiyaların inkişaf etdirilməsi və investisiyaların cəlb edilməsi konsepsiyası və strategiyası işlənilib hazırlanmalıdır. Dövlət tənzimlənməsində prioritet formalar iqtisadi və hüquqi formalarda diqqəti cəlb edir. Lakin hesab edirik ki, burada ən önəmli və üstünlük verilməli olan məsələlər investisiyaların və innovasiya fəaliyyətinin dəstəklənməsi, həmçinin investisiya təhlükəsizliyi kontekstində investorların maraqlarının qorunmasıdır.

Ölkə iqtisadiyyatına və o, cümlədən onun tikinti sektoruna investisiyaların səmərəli yatırılmasının təşkili üçün dövlət tərəfindən investisiya fəaliyyətinin tənzimlənməsi forma və metodları təkmilləşdirilməlidir.

Dövlətin investisiya fəaliyyətinin tənzimlənməsində iştirakı aşağıdakı formalarda özünü büruzə verir [9]:

1. Dövlət sistem yaradan faktor rolunda çıxış edir, real layihələrin də rreallaşdırılması da daxil olmaqla investisiya prosesinin bütün iştirakçıları üçün normativ-hüquqi bazanı yaradır;
2. Dövlət özü investisiya fəaliyyətinin subyekti kimi çıxış edir, birbaşa olaraq investorlara müsabiqələr əsasında büdcə vəsaitləri ayırır;
3. Dövlət investisiya əmtəələri bazarında investorların davranış strategiyalarını, həmçinin dövlət investisiyalarının həcmi və strukturunu müəyyənləşdirir.

## 2. Tikiniti sənayenin sturktur və tənzimləmə məsələləri

İqtisadiyyatın əsas göstəricilərinə uyğun (inflyasiya həcmi, büdcə kəsiri, istehsalın strukturu, əhalinin əmtəə və xidmətlərə tələblərinin alıcılıq qabiliyyəti ilə qarşılanması) investisiya məhsulları bazarının tənzimlənməsi ilə bağlı bu və ya digər konsepsiyaları qəbul edir. Konsepsiyalar isə öz növbəsində iki səviyyədə məqsədlərə uyğun müəyyən edilir: *strateji* (ÜDM-in artımı, əhalinin məşğulluğunun artması, inflyasiya templərinin aşağı düşməsi) məqsədlərə-həmin məqsədlər maliyyə və pul-kredit siyasətinin istehsala təsiri formasını müəyyən edir; cari məsələlərin həllinə yönəldilmiş məqsədlər (kapitala olan tələb və təklif nisbətləri, kredit resurslarına faiz dərəcələri, pul kütləsinin dinamikası və s.)- maliyyə və pul-kredit sferasında resurslara olan tələb və təklif nisbətlərini müəyyən edir [6].

Müvafiq olaraq, respublikada tikinti sənayesinin strukturuna bir qədər ətraflı diqqət yetirilməsi zərurəti yaranır. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının tikinti sənayesi kompleksinin tərkibinə müxtəlif təşkilatlar daxildir. Həmin təşkilatlar aşağıdakı

vəzifələri həyata keçirirlər: tikiniti konpleksinin fəaliyyətinin tənzimlənməsi, tikiniti norma və qaydaları tələblərinə əməl olunmasına nəzarət (Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi); yeni mühəndis texniki qərarlarının, yeni materialların və qurğuların hazırlanması, tikiniti materiallarının istehsal olunmasının yeni texnologiyalarının işlənilib hazırlanması (elmi tədqiqat müəssisələri); tikinti və inşaat, montaj işlərini həyata keçirən, tikinti materialları istehsal edən və tikinti sənayesinin maddi-texniki bazasını yaradan tikinti müəssisələri.

Qeyd etmək lazımdır ki, tikinti sənayesi kompleksində tikinti materiallarının istehsalı xüsusi yer tutur və tikinti materiallarının istehsalı təkcə tikinti sənayesinin inkişafına deyil, eyni zamanda bütünlükdə iqtisadiyyatın inkişafına təsir göstərir.

Heç də təsadüfi deyildir ki, Azərbaycan Respublikasında tikinti sənayesinin Qərb ölkələrinin tikinti sənayesinin inkişafından geridə qalmasını ölkə iqtisadiyyatında istehsal xərclərinin yüksəlməsinin əsas səbəblərindən biri kimi göstərirlər. Məhz dövlət tənzimlənməsi sosial iqtisadi sistem çərçivəsində tikinti iqtisadiyyatının dövrün tələblərinə və dəyişikliklərə uyğunlaşmasına imkan yaradardı [8].

Dövlətin əlindəki mövcud imkanlar tikinti sənayesi müəssisələrinin fəaliyyətinə kompleks surətdə təsir göstərməyə imkan yaradır. Belə təsirlər inzibati və iqtisadi üsullar vasitəsi ilə həyata keçirilir. İnzibati üsullar qismində tikinti sənayesində bazar iqtisadiyyatı münasibətlərinin inkişafına təsir göstərən, dövlət tərəfindən məcburi sertifikatlaşmaya, dövlət standartlarına əməl edilməsinə nəzarətin həyata keçirilməsi qaydalarını təsbit edən qanunvericilik aktlarının hazırlanması və qəbul edilməsi başa düşülür. İqtisadi üsullara vergi, maliyyə-kredit, investisiya, gömrük siyasəti, sığorta sistemi və s. daxildir. Ümumiyyətlə, tikinti sənayesinin fəaliyyətinin tənzimlənməsini aşağıdakı mərhələlərə bölmək olar:

1) tikinti materialları bazarının konyunkturasının öyrənilməsi, sahənin müəssisələrinin inkişaf etdirilməsi və dövlət proqramları çərçivəsində həyata keçirilən tədbirlərin səmərəlilik səviyyəsinin təsbiti;
2) sahənin xüsusiyyətlərinə görə göstəricilər sisteminin seçilməsi;
3) aktual informasisyanın sistemləşdirilməsi və məlumatların gerçək təhlil olunması modelinin yaradılması;
4) tikinti sənayesinin inkişaf səviyyəsinin dövrün dəyişkən tələblərinə uyğun təhlili;
5) sahənin daha da inkişaf etdirilməsi üsullarının seçilməsi (subsidiyalaşdırma, məqsədli kompleks proqramlar, əmtəələrin sertifikatlaşdırılması, maliyyə kredit siyasəti, vergilər və s.).

Azərbaycan Respublikasında tikinti sənayesisnin strukturunun yenilənməsinə 90-cı illərin əvvəllərindən başlanmışdır. Sahənin restrukturizasiyasına istehsal və investisiya fəaliyyətinin stimullaşdırılmasına xidmət edən qanunvericilik aktlarının qəbul edilməsi, uzun müddətli kreditləşdirmə mexanizmlərinin təkmilləşdirilməsi, ölkə və xarici tərəfdaşlarının investisiyalarının cəlb edilməsi mexanizmlərinin təkmilləşdirilməsi ilə başlanmışdır, lakin sahənin müasir tələb və çağırışlara cavab verməsi üçün görüləsi çox işlər vardır. Bu xüsusda qeyd etmək lazımdır ki, tikinti sənayesi müəssisələrinin davamlı inkişaf vəziyyətinin təmin edilməsi maliyyə-iqtisadi, təşkilati-hüquqi, informasiya,innovasiya-investisiya və digər tənzimləyicilərdən səmərəli istifadə olunmasını tələb edir. Qeyd etmək lazımdır ki, tikinti sənayesinin səmərəli inkişaf etdirilməsi dövlətin bir sıra sahələrdə həyata keçirdiyi siyasətdən asılıdır: investisiya, daxili bazarın qorunması, iqtisadiyyatın prioritet sahələr üzrə inkişaf etdirilməsi üçün elmi-tədqiqat işlərinin aparılması [5] və s.

## Nəticə

Ümumiyyətlə, nəzərə almaq lazımdır ki, dövlət tənzimləyiciləri və bazar özünü tənzimləyiciləri respublikada tikinti sənayesi kompleksində optimal strukturun və innovasiya-investisiya fəaliyyəti infrastrukturun yaradılmasına xidmət edir. Müvafiq olaraq qeyd etmək lazımdır ki, müasir dövrdə tikinti sferasında dövlət tənzimlənməsinin təkmilləşdirilməsinə ehtiyac vardır və burada əsas tədbirlər qismində aşağıdakıları xüsusi olaraq qeyd etmək olar:

1. tikinti sferasının dövlət tərəfindən tənzimlənməsinin hüquqi əsaslarının daha da təkmilləşdirilməsi;

2. tikintidə geoinformasiya sistemindən istifadə olunması, tikiniti işlərində əsas iştirakçı tərəflərin fəaliyyəti barəsində informasiyanın geoinformasiya sistemində əks olunması;

3. tikintidə elektron sahibkarlıq sisteminin inkişaf etdirilməsi, informasiyaların geoinformasiya sisteminin tələblərinə uyğun toplanılması və tamamlanması; geoinformasiya sisteminin informasiyalarının istifadə üsulları və alqoritmlərinin hazırlanması, həmin informasiyanın müasir investisiya-tikinti bazarında subyektlərarası münasibətlərin inteqrasiyasının dərinləşməsinə xidmət etməsinə yönəldilməsi;

4. tikiniti sferasında dövlət tənzimlənməsinin təkmilləşdirilməsi:

- mənzil tikintisi bazarında tikinti şirkətləri və həmçinin mənzil tikintisi investorlarının risklərdən qorunması üçün müvafiq preventiv tədbirlərin həyata keçirilməsi, xüsusən də tikinti dəllalları və möhtəkirlərinin spekulyativ fəaliyyətlərinin qarşısının alınması;
- tikintidə investisiya fəaliyyətinin idarə olunmasında yeni təşkilati iqtisadi və metodiki prinsiplərin tətbiqi;

5. tikinti sahəsinin investisiyalaşdırılmasında büdcə vəsaitlərinin rasional istifadəsi-dövlət dəstəyi almaq istəyən investisiya-tikinti layihələrinin siyahıya alınması, həmin layihələrlə bağlı innovasiya yönümlülüyünün, rəqabətqabiliyyətliliyinin və sosial iqtisadi əhəmiyyətinin ekspertlər tərəfindən müəyyənləşdirilməsi. Hər şeydən öncə ekspert araşdırmaları dövlət büdcəsindən birbaşa maliyyə yardımı və dəstəyi alan layihələrin təhlil olunması məqsədi ilə həyata kieçirilməlidir. Digər tərəfdən layihələrin icrası zamanı və başa çatması təqdirində büdcə vəsaitlərinin geri qaytarılması mexanizmləri müəyyən olunmalı və həmin mexanizmlər işlək hala gətirilməlidir;

6. respublikada regional investisiya tikinti layihələrində dövlətin iştirakı və tikinti investisiya layihələrinin icrasına nəzarət mexanizmlərinin təkmilləşdirilməsi;

7 . ümumrespublika və regional əhəmiyyətli investisiya-tikinti layihələrinin hazırlanması və planlaşdırılması mərhələlərinin işlənilmsəi. Qeyd etmək lazımdır ki, belə bir yanaşma investisiya layihələrinin dövlət tərəfindən idarə olunmasının metodologiyasında dəyişikliklərin edilməlidir.

8. tikinti-investisiya layihələrinin reallaşdırılmasının problemlərin kompleks və sistemil şəkildə və ardıcıl olaraq həllinə yönəldilməsi üçün strateji idarə etmə sisteminin formalaşması və təkmilləşdirilməsi [7].

Yuxarıda göstərilənlər tikinti sferasında investisiya fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsinin təşkilati-iqtisadi və metodiki prinsiplərini özündə əks etdirir.İnvestisiya layihələrinin reallaşdırılmasına sistemli yanaşma və sahələrarası inteqrasiyaya əsaslanmalıdır, və bu, zənnimizcə, respublikada iqtisadi inkişafa, onun ayrı-ayrı bölgələrində iqtisadi inkişafa, həmçinin mövcud problemlərin səmərəli həllinə səbəb olacaqdır.

### *İstifadə edilmiş ədəbiyyat*


**1.** *G.A.Əzizova. Dövlətin investisiya-innovasiya siyasəti (Dərs vəsaiti), Bakı: "İqtisad Universiteti" Nəşriyyatı 2012. – (212 səh. )s. 20*

**2.** *P.Q.Rzayev. İnvestisiyaların tənzimlənməsinin vergi aspektləri// Azərbaycanın vergi xəbərləri, 2011, №5, (s.69-82), s.70*

**3.** *Адрианов, В.Д. Эволюция основных концепций регулирования экономики от теории меркантилизма до теории саморегуляции / В.Д. Андрианов. – М.: «Экономика», 2008. – 326 с.*

**4.** *Артеменко А. А. Актуальные вопросы инновационного развития строительства [Текст] / А.А. Артеменко // Молодой ученый. — 2015. — №11. — С. 742-744.*

**5.** *Долгова А.В. Место и роль государства в развитии строительной индустрии на современном этапе //FUNDAMENTAL RESEARCH (ЭКОНОМИЧЕСКИЕ НАУКИ) № 11, 2014, с.580-583*

**6.** *Исаков И.Я. Теоретические дискуссии о необходимости государственного регулирования инвестиционной деятельности //ТЕОРИЯ И ПРАКТИКА ОБЩЕСТВЕННОГО РАЗВИТИЯ (2011, № 4), с.306-308*

**7.** *Канафиев Р.С., Латыпов Р.Ф. Государственное регулирование строительной деятельности // Novalnfo.RU-№44, 2016 г, Социологические науки*

**8.** *Козыренко Е.И. Управление устойчивым развитием предприятий промышленности строительных материалов // Вестник АГТУ. Сер.: Экономика. – 2010. – № 2 – С. 130–137.*

**9.** *Шишкин С.Н. Государственное регулирование экономики: предпринимательско-правовой аспект // СПС «Гарант».*



**M.A.Mammadov**
*Doctor of Economics, Professor*
*Azerbaijan Architecture and Construction University*

**N. Ramazanlı**
*Baku State University*


## *Methodological principles of state regulation of investment activity and structure of construction*


### Abstract

*In article are considered Debates around government regulation of economic activity, the discourse of the representatives of the different economic schools about questions participation state in regulation of the economy. Emphases was spared to methdological principle state regulation to investment activity in construction. Besides researched world experience and the main components of attraction to investments in building sphere.*



***Keywords:*** *investments, construction, economy construction, principles, theoretical methodology*

**М.А.Мамедов**
*Д.э.н., проф. АзАСУ*
***Н.Рамазанлы***
*к.т.н., Бакинский Государственный Университет*

***Методологические принципы государственного регулирования инвестиционной деятельности и структуры строительства***

***Резюме***

*В статье рассматриваются дискуссии вокруг государственного регулирования экономической деятельности, рассуждения представителей различных экономических школ относительно вопросов участия государства в регулировании экономики. Было уделено особое внимание методологическим принципам государственного регулирования инвестиционной деятельности в строительстве. Кроме того, исследуется мировой опыт и основные компоненты привлечения инвестиций в строительную сферу.*

***Ключевые слова:*** *инвестиции, строительство, экономика строительства, принципы, теоретическая методология*

**R.M.Əliyev**
*i.e.d., prof.AzMİU*
**İltifat Vəzifə Dəmirçi Məhərrəm oğlu**
*Doktorant, İİR UAST*

## ƏSAS KAPİTALA YÖNƏLDİLƏN İNVESTİSİYALARIN DİNAMİKASININ XÜSUSİYYƏTLƏRİ

**Xülasə**

*Məqalədə ölkəmiz siyasi və iqtisadi müstəqillik qazandıqdan sonra əsas kapitala yönəldilən investisiyalarındinamikasındakı dəyişikliklər geniş təhlil olunmuşdur.Məqalədə həmçinin əsas kapitala yönəldilənmiş daxili və xarici investisiyalar müqayisəli təhlil olunmuş,İran İslam respublikasındn da xarici investisiyaların vəziyyəti və büdcə xərclərinin dinamikası da araşdırılmışdır.*

***Açar sözlər**: daxili və xarici investisiyalar, əsas kapital, investisiya qoyuluşu, büdcə xərcləri, makroiqtisadi səmərəlilik*

### Giriş

Müasir dövrdə iqtisadiyyatın digər sahələrində olduğu kimi investisiya prosesləri və ölkədə qərarlaşan investisiya situasiyalarında da kəskin dəyişikliklər baş vermişdir.. Bu dəyişikliklər, ilk növbədə, əsas kapitala yönəldilən investisiyaların dinamikasının xüsusiyyətlərində öz əksini tapmışdır.

Bazar transformasiyalarının başlanması ilə əlaqədar 1990-cı illərin birinci yarısında keçid dövründə olan digər ölkələr kimi Azərbaycan Respublikasında da makroiqtisadi stabillik pozulmuş və ölkədə hiperinflyasiya yaşanmışdır. Bununla əlaqədar həmin illərdə iqtisadi

göstəricilərin cari qiymətlərilə ifadə olunması müvafiq sahələrdə real həcm ölçusunu düzgün ifadə etmirdi. Buna görə də qeyd edilən dövr üçün əsas kapitala yönəldilmiş investisiyaların dinamikası haqqında real təsəvvürlərə malik olmaq üçün həmin göstəricilərin fiziki həcm indeksinin hesablanması və onun dəyişilmə meyllərinin təhlili məqsədəuyğundur.

1 saylı şəkildəki məlumatlarından aydın olduğu kimi respublika iqtisadiyyatını əhatə edən davamlı böhran şəraitində əsas kapitala yönəldilən investisiyaların həcmi cari qiymətlərlə ardıcıl surətdə (həm də ayrı-ayrı illərdə cox böyük surətlə) artmış olsa da həmin göstəricilərin fiziki həcminin dəyişilməsinin əks etdirən indeksinin qiyməti kəskin surətlə azalmışdır. Məlumatlardan aydın olduğu kimi, respublikamızda əsas kapitala yönəldilən xarici investisiyaların real həcmi 2000-cı ilə nisbətən 2004-cü ilə qədər artmış, daha sonra azalma müşahidə olunmuş, 2009-cu ildən sonra isə yenidən artım baş vermişdir. 2014-cü ildə ildə ölkəmizin iqtisadiyyatına qoyulan xarici investisiyaların həcmi təqribən 2000-cı ildə həyata keçirilmiş kapital qoyuluşunun həcminə bərabər olmuşdur.

Yuxarıda göstərilənlər 1990-cı illərin birinci yarısında Azərbaycanda investisiya böhranının yaşandığını təsdiq etməyə imkan verir. İnvestisiya böhranı keçid dövründə ölkəmizin iqtisadiyyatını bütövlükdə əhatə etmiş böhranın tərkib hissəsi kimi çıxış etmişdir. Bununla əlaqədar həmin sahədə böhranı daha ətraflı səciyyələndirmək üçün bu sferanın müvafiq göstəricilərinin digər sahələrlə müqayisəsi məqsədəuyğundur. 2 saylı cədvəlin məlumatlarından göründüyü kimi, keçid dövrünün başlanğıcında, daha doğrusu 1990-1993-cü illərdə əsas kapitala

**Şəkil 1. Əsas kapitala yönəldilmiş daxili və xarici investisiyalar [1].**




yönəldilən investisiyaların fiziki həcminin aşağı düşməsi dərəcəsi digər sahələrlə müqayisədə daha böyük olmuşdur. İnvestisiya qoyuluşları sferasında enmənin səviyyəsi sənayeyə nisbətən 1,4 dəfə, kənd təsərrüfatına nisbətən isə 2,0 dəfə çox olmuşdur. Belə vəziyyət investisiya qoyuluşları sferasında enmə templərinin daha yüksək olması ilə əlaqədardır. Digər sahədə, məsələn sənayedə, enmə templəri 1990-cı illərin əvvəlində əhəmiyyətli dərəcədə aşağı olmuşdur. Nəticədə həmin sahədə demək olar ki, eyni enmə səviyyəsi (28,0%) 1996-cı ildə müşahidə edilmişdir. Bununla yanaşı əsas kapitala investisiya qoyuluşları sferasında enmənin ardıcıl davam etmə müddəti

iqtisadiyyatın nəzərdən keçirdiyimiz digər sahələri ilə müqayisədə xeyli az olmuşdur.

Müqayisə üçün xarici ölkələrdə investisiyaların vəziyyətini də qiymətləndirmək olar. Məsələn,İranda olan xarici investisiyaların dinamikasını göstərmək olar.Bunu aşağıdakı 2saylı şəkildə əks etdirmişik [2].




**Şəkil 2. İranda xarici investisiyaların dinamikası**

Şəkildən göründüyü kimi, İranda da 2010-ci ildən sonra xarici investisiyalarda artım müşahidə olunur.İnvestisiyaların ən böyük həcmi 2012-ci ildə müşahidə olunmuşdur.2006-ci ilnən müqayisədə 2014-ci ildə 21 % artım müşahidə olunmuşdur.İqtisadi sanksiyalar şəraitində bu olduqca mühüm göstəricidir.

Eyni zamanda, 2010-ci ildən sonra İranda budcə xərcləri artmaqa başlamışdır (bax. şəkil 3).




**Şəkil 3. İranda büdcə xərclərin din**

Şəkildən göründüyü kimi, ən böyük büdcə xərcləri 2015-ci ildə müşahidə olunmuşdur.2006-ci illə müqayisədə 2015-ci ildə büdcə xərcləri 3.5 dəfə artmışdır.

Qeyd edilən cəhətlər sistem transformasiyaları şəraitində bütövlükdə iqtisadiyyatda böhranı şərtləndirən amillərin investisiya qoyuluşları sferasında olan xüsusiyyətlərlə bağlı olmuşdur. Belə ki, bazar iqtisadiyyatına keçid proseslərinin başlanması dövlətin iqtisadi subyekt kimi fəaliyyətinin məhdudlaşdırılması ilə nəticələnmişdir. Bu məhdudlaşdırma, ilk növbədə, investisiya qoyuluşlarını əhatə etmişdir. Mərkəzləşdirilmiş planlı təsərrüfatçılıq sistemində başlıca investor dövlət idi. 1990-cı illərin sonlarında Azərbaycanda kapital qoyuluşlarının 85%-i dövlətin, həmçinin dövlət müəssisə və təşkilatların payına düşmüşdür. Keçid proseslərinin başlanması ilə əlaqədar uzunmüddətli inkişaf məqsədlərində qeyri-müəyyənliklərin meydana gəlməsi dövlətin mərkəzləşdirilmiş kapital qoyuluşu proqramlarının əsas hissəsinin reallaşdırılmasının dayandırılmasına və yaxud da həmin proqramlar üzrə ayrılan vəsaitlərin həcminin kəskin surətdə azaldılmasına gətirib çıxarmışdır. Digər tərəfdən, siyasi stabilliyin pozulması və əvvəlki dövrlərdə formalaşmış olan vahid iqtisadi məkanın dağılması ilə əlaqədar müəssisələrin fəaliyyət şəraitində, məhsul satışında əmələ gələn çətinliklər təsərrüfat subyektlərini əsas kapitala yeni investisiya qoyuluşlarından çəkindirmişdir.

Qeyd edilənlərlə əlaqədar olaraq bazar iqitisadiyyatına keçid dövrünün əvvəlində əsas kapitala investisiya qoyuluşlarının həcminin ixtisar olunma templəri böhran şəraitində iqtisadiyyatın digər sektorlarında məhsul istehsalının həcminin azalması tempini qabaqlamışdır.

Keçid dövrünün əvvəllərində Azərbaycanda investisiya böhranının baş verməsi və bunun iqtisadiyyatda ümumi sistem böhranının içində özünə yer alması həmin dövr üçün əsas kapitala yönəldilən investisiyaların makroiqtisadi səmərəliliyinin qəbul olunmuş meyarlar üzrə dəyərləndirilməsində çətinliklər yaratmışdır. Daha doğrusu qeyd edilən göstəricilər üzrə səmərəlilik haqqında düzgün fikir yürütmək mümkün olmur. Bu cəhət bütünlükdə bazar iqtisadiyyatına keçid dövrü üçün əsas kapitala yönəldilən investisiyaların makroiqtisadi səmərəlilik göstəricilərinin dinamikasının təhlili zamanı nəzərə alınmışdır.

Ölkədə siyasi və makroiqtisadi stabilliyin təmin olunması iqtisadi inkişaf üçün əlverişli şərait yaratmış və bunun nəticəsində iqtisadiyyatda ümumi tənəzzül proseslərinə son qoyulmuşdur. 2005-2014-ci illərdə Ümumi Daxili Məhsulun fiziki həcm indeksi müsbət dinamikaya malik olmuşdur. Deməli, 1990-cı illərin ikinci yarısı və 2000-ci illərin başlanğıcında Azərbaycan Respublikasında iqtisadiyyatın real sektoruna investisiya qoyuluşlarında irəliləyişlər ölkədə ümumi iqtisadi dirçəliş proseslərinin fonunda baş vermişdir. Qeyd edilən fonun qərarlaşması əsas kapitala yönəldilən investisiya qoyuluşlarının genişmiqyaslı artırılmasını stimullaşdırmışdır. Eyni zamanda investisiya qoyuluşlarının artması da, öz növbəsində, ümumi iqtisadi dirçəlişi surətləndirən əsas amillərdən birinə çevrilmişdir. 1990-cı illərin ikinci yarısı və 2000-ci illərin başlanğıcında Azərbaycan Respublikası iqtisadiyyatında investisiya dirçəlişinin baş verməsi və onun davamlı yüksəlişə keçməsinə yuxarıda göstərdiyimiz ümumi səciyyəli şərtlərlə yanaşı, bir sıra özəl amillər də səbəb olmuşdur. Bu amillərin sırasında tədqiq edilən dövrdə investisiyaları həyata keçirən subyektlərin strukturunda ciddi dəyişikliklərin baş verməsi olmuşdur. Ölkəmizdə əsaslı iqtisadi islahatların həyata keçirilməsi nəticəsində bazar iqtisadi sisteminin formalaşması ilə əlaqədar investisiya qoyuluşlarında özəl sektor dövləti sıxışdırmağa başlamış və bu sahədə həlledici mövqelərə çıxmışdır.

Əsas kapitala yönəldilən investisiya qoyuluşları sferasında özəl sektor subyektlərinin hakim mövqelərə yiyələnmələri iqtisadi inkişaf problemlərinin həllinin investisiya təminatı sahəsində dövlətin imkanlarının məhdudluğundan doğan çətinlikləri arxa plana keçirir. Bununla yanaşı investisiya qoyuluşları sferasında özəl sektorun aparıcı rola yiyələnməsi daha yüksək

səmərəlilik göstəricilərinə malik olan layihələrin reallaşdırılmasına yol açır. Bu baxımdan, Azərbaycanda 1990-cı illərin ikinci yarısı və 2000-ci illərin başlanğıcında əsas kapitala yönəldilən investisiyaların həyata keçirilməsində qeyri-dövlət sektorunun payının sürətlə artması həm də ölkə iqtisadiyyatında investisiya qoyuluşlarının makroiqtisadi səməriliyinin yüksəldilməsinin mühüm amilindən birinə çevrilmişdir.

Tədqiq edilən dövrdə əsas kapitala yönəldilən investisiyaların genişləndirilməsi Azərbaycan iqtisadiyyatina həm yerli (daxili) və həm də xarici investorlar tərəfindən vəsait qoyuluşlarının artırılması hesabına baş vermişdir. Bu barədə 1 saylı cədvəlin məlumatları əyani təsəvvür yaradır.

Məlumatlardan göründüyü kimi ölkəmizdə əsaslı islahatların həyata keçirilməsi gedişində daxili invenstisiyaların həcmi əhəmiyyətli dərəcədə artmışdır. Həmin göstərici 2000-2014-ci illərdə 6 dəfə çoxalmışdır. Bu, bir tərəfdən infrastrukturun inkişaf etdirilməsinə dövlət tərəfindən ayrılan əsaslı vəsaitlərin həcminin artması, digər tərəfdən isə yerli özəl bölmə investorlarının maliyyə imkanlarının genişlənməsi ilə əlaqədar onlar tərəfindən ölkə iqtisadiyyatında həyata keçirilən yatırımların çoxalması ilə əlaqədardır.

**1 saylı cədvəl. Azərbaycan Respublikasında dövlət və qeyri-dövlət sektoru üzrə əsas kapitala yönəldilən investisiyalar [1].**

| İllər *Years* | Cəmi milyon manat *Total mln. manats* | o cümlədən: *of which:* dövlət *state* | | | qeyri-dövlət *non-state* | | |
|---|---|---|---|---|---|---|---|
| | | milyon manat *mln. manats* | əvvəlki ilə nisbətən, faizlə *as per cent to previous year* | ümumi həcmdə xüsusi çəkisi, faizlə *share in total volume, in per cent* | milyon manat *mln. manats* | əvvəlki ilə nisbətən, faizlə *as per cent to previous year* | ümumi həcmdə xüsusi çəkisi, faizlə *share in total volume, in per cent* |
| **2005** | 2104,9 | 795,3 | 2,0 d.(t) | 37,8 | 1309,6 | 141,3 | 62,2 |
| **2006** | 2901,4 | 1644,6 | 2,1 d.(t) | 56,7 | 1256,8 | 96,0 | 43,3 |
| **2007** | 4626,7 | 3561,7 | 2,2 d.(t) | 77,0 | 1065,0 | 84,7 | 23,0 |
| **2008** | 7702,2 | 5720,4 | 159,0 | 74,3 | 1981,8 | 184,2 | 25,7 |
| **2009** | 6079,9 | 4220,0 | 77,5 | 69,4 | 1859,9 | 98,6 | 30,6 |
| **2010** | 7499,2 | 5575,1 | 124,9 | 74,3 | 1924,1 | 97,8 | 25,7 |
| **2011** | 10199,0 | 7315,6 | 129,3 | 71,7 | 2883,4 | 147,6 | 28,3 |
| **2012** | 12148,4 | 8842,3 | 119,0 | 72,8 | 3306,1 | 112,9 | 27,2 |
| **2013** | 13178,9 | 10037,5 | 112,8 | 76,2 | 3141,4 | 94,4 | 23,8 |
| **2014** | 12715,0 | 8666,5 | 86,0 | 68,2 | 4048,5 | 128,4 | 31,8 |

İslahatların gedişində investisiya fəaliyyəti sahəsində institutsional mexanizmlərin təkmilləşdirilməsi də həmin istiqamətdə müəyyən stimullaşdırıcı rol oynaya bilmişdir. Eyni zamanda belə bir vacib cəhətə diqqət yetirmək lazımdır ki, əsas kapitala investisiyaların dinamikasının bilavasitə təhlil etdiyimiz dövrdə, yəni 2000-ci illərin başlanğıcında daxili investorlar tərəfindən əsas kapitala yönəldilən yatırımların artım templəri ayrı-ayrı illər üzrə

yüksək olmamışdır, digər tərəfdən bu göstəricinin yüksəlişində qeyri stabillik halı müşahidə edilmişdir. Nəzərdən keçirilən dövrdə daxili investisiyaların artım templəri əsas kapitala yönəldilən ümumi investisiyaların artım tempindən geri qalmışdır. 2 saylı cədvəlin məlumatlarından da göründüyü kimi, əsas kapitala yönəldilən ümumi investisiyalarda daxili investisiyaların xüsusi çəkisi 2005-2014-ci illərdə 37,8 faizdən 68,2 faizədək yüksəlmişdir. Bütün bunlar isə onu deməyə əsas verir ki, bazar iqtisadiyyatına keçid dövründə Azərbaycan Respublikasında investisiya dirçəlişinin təmin olunmasında xarici investisiyalar daha böyük rol oynasa da, lakin 2004-ci ildən başlayaraq daxili investisiyaların xüsusi çəkisi nisbətən artmışdır.

**2 saylı cədvəl. Azərbaycan Respublikasında əsas kapitala yönəldilmiş daxili və xarici investisiyalar[1]**

| İllər | Daxili investisiyalar | | Xarici investisiyalar | |
|---|---|---|---|---|
| | Mlyn. man. | Ümumi investisiyada xüsusi çəkisi,%-lə | Mlyn. man. | Ümumi investisiyada xüsusi çəkisi,%-lə |
| 2005 | 2104,9 | 37,8 | 3665 | 62,2 |
| 2006 | 2901,4 | 56,7 | 3333,1 | 43,3 |
| 2007 | 4626,7 | 77 | 2844,5 | 23 |
| 2008 | 7702,2 | 74,3 | 2242 | 25,7 |
| 2009 | 6079,9 | 69,4 | 1645 | 30,6 |
| 2010 | 7499,2 | 74,3 | 2406,5 | 25,7 |
| 2011 | 10199 | 71,7 | 2600,1 | 28,3 |
| 2012 | 12148,4 | 72,8 | 3258,9 | 27,2 |
| 2013 | 13178,9 | 76,2 | 4671,9 | 23,8 |
| 2014 | 12715 | 68,2 | 4903,6 | 31,8 |

Ümumiyyətlə, keçid dövründə Azərbaycan iqtisadiyyatına xarici investisiyaların müəyyən qədər cəlb edilməsi 1994-cu ildən Xəzərin ölkəmizə aid olan sektorunda yerləşən neft və qaz ehtiyatlarının işlənilməsinə dair iri xarici neft şirkətləri ilə bağlanan əsrin müqaviləsinin reallaşması ilə əlaqədar başlanılmışdır. Lakin ölkəmizin iqtisadiyyatının real sektoruna xarici investisiyaların nisbətən böyük həcmdə axını 1990-cı illərin ikinci yarsından sonra baş vermişdir. 2005-2014-ci illərdə xarici investisiyalar əsas kapitala yönəldilən bütün investisiyaların 60,7 faizini təşkil etmişdir. Başqa sözlə 1990-cı illərin ikinci yarsında iqtisadiyyatımıza qoyulan əsaslı vəsaitin 2/3 hissəsi xarici investisiyaların payına düşür.

Tədqiq etdiyimiz dövrdə Azərbaycan Respublikasında əsas kapitala investisiya qoyuluşlarının həcminin artımının üstün templərlə həyata keçirilməsi, o cümlədən həmin templərin Ümumi Daxili Məhsul üzrə müvafiq göstəriciləri əhəmiyyətli dərəcədə qabaqlaması (bax 2 saylı cədvəl) da məhz ölkəmizdə iri miqyaslı xarici investisiyaların axını ilə şərtləndirilmişdir. Hesablamalar göstərir ki, 2005-2014-ci illərdə əsas kapitala yönəldilmiş ümumi investisiyaların məbləğində daxili investisiyaların 30%-dən cox xüsusi şəkisinin yüksəlməsi qeyri-neft sektoru və dünya neft qiymətlərin göstərilən müddətdə artması ilə əlaqədardır. Göstərilən dövrdə ölkəmizə cəlb edilən və əsas kapitala yönəldilən xarici investisiyaların artımının dəyər ifadəsində həcmi təxminən 13 mlrd. manat olmuşdur. Bu, müvafiq dövrdə Ümumi Daxilin Məhsulun artım məbləğinə nisbətən 17,3 % təşkil edir.

Beləliklə, 2000-ci ilin başlanğıcında Azərbaycan Respublikasında əsas kapitala qoyulan daxili və xarici investisiyaların həcminin keçid proseslərinin həyata keçirildiyi əvvəlki dövrlə

müqaisədə əhəmiyyətli dərəcədə artması müşahidə edilmişdir. Əsas kapitala yönəldilən investisiyaların ölkə əhalisinin hər nəfərinə düşən məbləği 2014-ci ildə 2005-ci ilin müvafiq göstəricisinə nisbətən 5,6 dəfə yüksək olmuşdur. Bu fərq 1999-2014-ci ilin orta göstəricisinin 1994-1996-cı ilin orta göstəricisi ilə müqaisədə 2,9 dəfə təşkil etmişdir ([6, s. 34-37] məlumatları əsasında hesablanmışdır).

Yuxarıda göstərilən müsbət meyllər bazar iqtisadiyyatına keçid dövrünün tədqiq etdiyimiz mərhələsində Azərbaycan Respublikasında əsas kapitala investisiya qoyuluşları sferasında əvvəlki illərdə mövcud olmuş böhranlı vəziyyətdən çıxmağa, dirçəlişə nail olmağa, investisiyaların mütləq və nisbi səviyyəsini əhəmiyyətli dərəcədə yüksəltməyə imkan vermişdir.

Bazar iqtisadiyyatına keçid şəraitində Azərbaycan iqtisadiyatında əsas kapitala yönəldilən investisiyaların dinamikasının tədqiqi bu sahədə 2004-ci ildən başlayaraq keyfiyətcə yeni situasiyanın yarandığını göstərir.

## Nəticə

Yuxarıda göstərildiyi kimi, ölkəmizdə əsaslı iqtisadi islahatların həyata keçirilməsi investisiya qoyuluşları sahəsində də irəliləyişlərə yol açmışdır. Əsas kapitala yönəldilən investisiyaların artımı bütövlükdə əlverişli olmuşdur. Bu göstəricilərin səviyyəsi digər müvafiq makroiqtisadi parametrlərlə (Ümumi Daxili Məhsul, sənaye məhsulu, kənd təsərüfatı məhsullarının artım templəri ilə və s) müqayisədə daha yüksəkdir. Lakin eyni zamanda 1990-cı illərin ikinci yarısı və 2010-ci illərin ortası üçün ölkəmizdə iqtisadiyyatın real sektoruna investisiya qoyuluşlarının dinamikası üçün bütövlükdə mötədil kimi dəyərləndirilə biləcək artım səciyyəli olmuşdur. Bununla bərabər, 2 saylı şəkilin məlumatlarından göründüyü kimi,2004-ci ilidən başlayaraq əsas kapitala yönəldilən investisiyaların həcmində çox yüksək miqyasda artımlar müşahidə edilməyə başlanmışdır. Belə ki, qeyd edilən dövrdə investisiyaların həcmi müvafiq illərin qiymətlərilə 2002-ci ildə 4,7 milyon manat, 2003-cü ildə 8,4 milyon manat, 2014-cü ildə isə 15,2 milyon manat təşkil edir. Bu göstəricilərin Azərbaycan Respublikasının iqtisadi miqyaslarında nə dərəcədə böyük olduğunu nəzərə çarpdırmaq üçün belə bir müqayisə aparaq ki, əsas kapitala yönəldilən investisiyaların həcminin illik artımı ölkənin Ümumi Daxili Məhsulunun dəyərinə nisbətən 2002-ci ildə 15,5%, 2003-cü ildə 24%, və 2014-cü ildə 15,7% olmuşdur .

Qeyd edilən dövrdə əsas kapitala yönəldilən investisiyaların dinamikasında göstərilən xüsusiyyət həmin göstəricinin fiziki həcm indeksində də özünü əks etdirir. Əsas kapitala yönəldilən investisiyaların fiziki həcmi 1996 cı ilin müvafiq göstəricisi ilə müqayisədə 2002-ci ildə 3,8 dəfə , 2003-cü ildə 6,7 dəfə, 2014-cü ildə isə 9,1 dəfə artmışdır.

Beləliklə, Azərbaycan iqtisadiyyatında əsas kapitala yönəldilən investisiyaların 2002-2004-cü illər üzrə dinamikasını əslində həmin sahədə ardıcıl partlamalar kimi də səciyyələndirmək olar. Şübhəsiz ki, əsas kapitala yönəldilən investisiyaların iqtisadiyyata qısa və uzunmüddətli dövrlərdə ciddi təsirinin iqtisadi mahiyyəti, onun struktur xüsusiyyətləri və əsas nəticələrinin daha geniş və ətraflı araşdırılması məqsədəmüvafiqdir.

### *İstifadə edilmiş ədəbiyyat*

1. *://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/stat-yearbook_2015.zip*
2. *http://www.tradingeconomics.com/iran/fiscal-expenditure*

**Р.М.Алиев**
*д.э.н., проф. АзАСУ*

**Ильтифат Везифе Демирчи**
*Докторант АзАСУ , Исламская Республика Иран*

***Особенности динамики инвестиций, направленных в основной капитал***

***Резюме***

*В статье подробно проанализирована динамика инвестиций, направляемых в основной капитал после приобретения нашим государством политической и экономической независимости. В статье, в том числе проведён сравнительный анализ внутренних и иностранных инвестиций, направляемых в основной капитал, рассмотрено состояние иностранных инвестиций и динамика бюджетных расходов в Иранской Исламской Республике.*

***Ключевые слова:*** *внутренние и иностранные инвестиции, основной капитал, инвестиционные вложения, бюджетные расходы, макроэкономическая эффективность*

**R.M.Aliyev**
*Doctor of Economics,*
*Professor*
**İltifat Vezife Demirchi**
*doctoral Azerbaijan Architecture and Construction University*
*Islamic Republic of Iran*

***Features of the dynamics of investments directed to fixed assets***

Abstract

*The article analyzes in detail the dynamics of investments directed to fixed assets after the acquisition by our state of political and economic independence. The article, including a comparative analysis of domestic and foreign investments sent to fixed assets, examined the state of foreign investment and the dynamics of budget expenditures in the Islamic Republic of Iran.*
***Key words:*** *domestic and foreign investments, fixed assets, investment, budget expenditures, macroeconomic efficiency*

**A.A.Najimov**
*PhD Candidate, Azerbaijan University of Architecture and Construction*

## IMPORTANCE OF LOGISTICS AND SUPPLY CHAIN MANAGEMENT AT THE SUSTAINABLE DEVELOPMENT OF INDUSTRIAL ENTERPRISES

**Abstract**

*The author researched the theoretical and empiric data related with the importance of logistics and supply chain management at the sustainable development of industrial enterprises and remarked some useful advices for entrepreneurs/enterprises.*

***Keywords:*** *Industrial enterprises, Sustainable development, Logistics, Supply chain management, National economy*

### Introduction

We know that government of every country try to develop its economical system and create suitable business environment for entrepreneurs/enterprises. Every entrepreneurs/enterprises try to work and get more benefits and pay its periodical taxes and other payments to the National budget. As we see many economical operations and processes happen in the economical system where there are a lot of participants and they are contacted with each other directly or indirectly.

Researcher with this article tried to show theoretical and practical aspects as well as importance of logistics and supply chain management in National economy. Besides researcher explained impact of logistics and supply chain management to the sustainable development of the industrial enterprises. At the end of the article researcher added and mentioned some useful advices for entrepreneurs/enterprises related with using and getting more benefits from logistics and supply chain management services.

**Research**

As we know all industrial enterprises produce products or provide different kind of services where they use and move relevant and needed materials from one place to another. We also know that manufacturers build factories that collect raw materials from suppliers and deliver finished goods to customers, retail shops have regular deliveries from wholesalers, a television news service collects reports from around the world and delivers them to viewers, most of us live in towns and cities and eat food brought in from the country, when we order a book or DVD from a website (electronic trading platform as www.azexport.az) then a courier delivers it to our door etc. Every time we buy, rent, lease, hire or borrow anything at all, someone has to make sure that all the parts are brought together and delivered to our door.

All above mentioned processes are very important in every country and every time. Especial companies who provides supportive services we can call them as a logistics or supply chain management organization. At the heart of the industrial enterprises are the operations that create and deliver the products. These operations take a variety of inputs and convert them into desired outputs, as shown in Figure 1. The inputs include raw materials, components, people, equipment, information, money and other resources. Operations include manufacturing, serving, transporting, selling, training etc. The main outputs are goods and services.




**Figure 1:** Operations creating outputs

The products created by the industrial enterprises then they are passed them to their customers, giving the cycle shown in Figure 2. This shows customers generating demands with operations using resources to make products that satisfy them. Logistics moves materials around this cycle.




**Figure 2:** Cycle of supply and demand

So, logistics also moves materials through the different parts of the industrial enterprises, collecting from internal suppliers and delivering to internal customers (as shown in Figure 3).




**Figure 3:** The role of logistics

Besides, we must mention about materials. Materials are all the things that an industrial enterprise moves to create its products. These materials can be both tangible (such as raw materials) and intangible (such as information). So, as we saw that logistics is the function that is responsible for movement of the products. It is responsible for the transport and storage of materials on their journey between suppliers and customers.

Generally, logistics is the function responsible for the flow of materials from suppliers into an enterprise, through operations within unites of the enterprise and then out to customers. In reality, industrial enterprises do not work in isolation, but each one acts as a customer when it buys materials from its own suppliers and then it acts as a supplier when it delivers materials to its own customers. A wholesaler, for example, acts as a customer when buying goods from

manufacturers and then as a supplier when selling goods to retail shops. A component maker buys raw materials from its suppliers, assembles these into components, and passes the results to other manufacturers. Most products move through a series of enterprises as they travel between original suppliers and final customers. For example: a sheet of paper moves through several enterprises before it reaches our desk (illustrated in Figure 4).




**Figure 4:** Outline of the supply chain for paper production process

People use different names for above chains of activities. When they emphasize the operations, they refer to the process, when they emphasize marketing, they call it a logistics channel, when they look at the value added, they call it a value chain, when they see how customer demands are satisfied and they call it a demand chain. Here we are emphasizing the movement of materials and will use the most general term of supply chain. A supply chain consists of the series of activities and industrial enterprises that materials move through on their journey from initial suppliers to final customers. Every product has its own unique supply chain and these can be both long and complicated. If we will look at the structure of the supply chain then we can see the simplest view of a supply chain where it has a single product moving through a series of industrial enterprise, each of which somehow adds value to the product.

Taking one industrial enterprise's point of view, activities in front of it – moving materials inwards – are called upstream, those after the enterprise – moving materials outwards – are called downstream. The upstream activities are divided into tiers of suppliers. A supplier that sends materials directly to the operations is a first tier supplier, one that send materials to a first tier supplier is a second tier supplier, one that sends materials to a second tier supplier is a third tier supplier etc. back to the original sources. Customers are also divided into tiers. One that gets a product directly from the operations is a first tier customer, one that gets a product from a first tier customer is a second tier customer, one that get a product from a second tier customer is a third tier customer etc. to final customers (see Figure 5).




**Figure 5:** Activities in a supply chain

In practice, most industrial enterprises get materials from many different suppliers and sell products to many different customers. Then the supply chain converges as raw materials move in through the tiers of suppliers and diverges as products move out through tiers of customers. A manufacturer might see sub-assembly providers as first tier suppliers, component makers as second tier suppliers, materials suppliers as third tier suppliers etc. It might see wholesalers as first tier customers, retailers as second tier customers and end users as third tier customers (as illustrated in Figure 6).




**Figure 6:** Supply chain around a manufacturer

It is fairly easy to imagine the shape of a manufacturer's supply chain, but most other industrial enterprises use the same general approach. Airlines, for example, move passengers from pick-up points, through local feeder services to major 'hub' airports, on to another hub, and then back out through local services to their destinations, banks collect all cheques in central clearing houses before sending them back to branches and customers etc.

Each product has its own supply chain and there is a huge number of different configurations. Some are very short and simple – such as a cook buying potatoes directly from a farmer. Others are surprisingly long and complicated. An everyday product like a shirt has a long journey from the farm growing cotton through to the final customer. It also has several chains merging as buttons, polyester, dyes and other materials join the main process.

After theoretical analyze we can look at Azerbaijan logistics and supply chain management services and condition. Researcher and writer of this article focused to research sustainable development of industrial enterprises in the Republic of Azerbaijan. Besides, the article is related with the topic of PhD dissertation: "Study of the strategic directions of sustainable development of industrial enterprises". So, logistics and supply chain management services in Azerbaijan and its perspective as well as sustainable development is very actual subject for government, all stakeholders and mainly for the industrial enterprisers.

Before starting to analyze some statistical numbers and empirical data I'd like to define research question. This question will support us to find answer(s) and help this field in Azerbaijan. So, my research question is "How can we develop logistics and supply chain management services in Azerbaijan and why some industrial enterprises can't get benefits from these services?"

First part of the question is very simple to answer. Because starting from 2014-2015 years in our country had established a lot of new opportunities related with logistics and supply chain management services. For example I'd like to mention about the New Port (Port of Baku) and Free Trade Zone (FTZ) at Alyat (70 km away from Baku). The development of this New Port and FTZ in Azerbaijan it is becoming positioned as a hub where enterprises will use locally produced materials to add value to imported products before shipping them onwards to destinations in Central Asia, Europe and Turkey.

Besides, Azerbaijan has the ingredients to become one of the major commercial and transportation hubs in the region and to be the country that facilitates regional transformation. Its location, abundance of natural resources and dynamic new generation will help realize this vision and bring more income for National budget. If we started to mention about Port of Baku then let's learn a little bit more about it. Such as Port of Baku is the oldest port in the Caspian Sea and has existed through many historical periods of Azerbaijani state building. For centuries, Port of Baku served as a link between East and West, alongside the ancient Silk Road, as well as North-South transport corridor that connects North Europe and Russia with Middle East and South Asia. Later this route was used by Russian, European, Indian and other foreign traders. Over 20 Indian caravans travelled alongside the route from Ardabil to Baku in 1703 who exported silk, oil, fish, animal fur, copper, horses, natural dyes, caviar and leather.

In the middle of the fifteenth century, a new trade route was explored between Volga-Don and the Caspian Sea trade route that connected Eastern Europe and India. This stipulates the importance of today's Port of Baku in Caspian trade, as well as a major logistics centre in wider international maritime trade. Construction of the modern Port of Baku started in the mid-nineteenth century under the Russian Empire and it was officially inaugurated as a self-governing port on 21st July 1902. It was among the world's leading ports and the largest of the Russian Empire in terms of cargo and passenger traffic. Various types of dry cargo such as cotton, fruit and sugar, were among some of the main trade goods at Port of Baku and other ports on the Caspian Sea such as Astrakhan, Krasnovodsk (today's Turkmenbashi), Petrovsk (today's Makhachkala) and Iranian ports. Already by 1900, annual cargo traffic had reached 6.5 million tonnes (around 400 million Russian 'poods') and the port served a total of 157,779 passengers in 1912. The Russian Empire also took advantage of the transit potential of Port of Baku with around 38.1 million 'poods' passing through Port of Baku as cargo in transit. In June to August 1920, as a result of an oil boom, a lot of construction in Port of Baku was carried out to provide

safe passage for oil tankers. In 1923 to 1924, trade through Port of Baku comprised 27.3% of the total for cargo in the whole of the Soviet Union. This made Port of Baku the leading port of the Soviet Union. Port of Baku also took an active part in protecting state borders in the Second World War. Large amount of cargo was handled in Port of Baku within a very short period of time in order to reach the frontlines in time. In three months in 1942, the amount of cargo grew more than twice from 187,200 to 445,800 tonnes. After the Second World War, extensive construction work had to be done to restore the former state of Port of Baku. In 1963, a new ferry terminal was commissioned, followed by the construction of a dedicated berth for passenger services. In 1972, a new passenger terminal building was also completed. After gaining independence, the Republic of Azerbaijan established close economic relations with neighboring countries. In 1998, Baku city held an international conference on the 'Historic Silk Road' in order to revive this ancient trade route and create the foundations for further processes of integration with the countries involved. The president of the Republic of Azerbaijan has determined that a major state policy goal should be to use the transit potential of the country, pointing to Port of Baku as a key strategic project in the diversification of the economy that will become a main non-oil sector project generating the second greatest share of budget revenues. On 18th of March, 2015, the Port of Baku was restructured by a decree of President Ilham Aliyev and became a close joint stock company (CJSC). Currently, Port of Baku is taking steps to become a regional transport and logistics hub in Eurasia. Besides, the New Port at Alyat is now under construction. By the end of the third stage of construction, the New Port is planned to be able to handle 25 million tonnes of cargo and one million TEU in containers.

So, now we can analyze some statistical and empirical data to understand current situation in Port of Baku. Such as Port of Baku is handled 3.1 million tons of cargo during the year of 2015. Due to economic and financial hardships caused by the drop of global oil prices, cargo handling indicators have been experiencing a downward tendency. Although these undesirable economic conditions, Port of Baku is expecting to handle more than 5 million tons of cargo in 2016. Below provided data indicates the detailed information on railcars, major commodities, containerized cargo, principal trading countries, vessel arrivals, passengers, etc.

**Table №1:** Detailed information on railcars, major commodities, containerized cargo, principal trading countries, vessel arrivals, passengers.

| Tons | 2013 | 2014 | 2015 | % change* |
|---|---|---|---|---|
| Auto Vehicles** | 8120 | 19469 | 186141 | +856,09% |
| Bulk and Break-Bulk | 2676466 | 2215406 | 1051109 | -52,55% |
| Containerized | 141391 | 321521 | 350849 | 9,12% |
| Railcars | 4058299 | 3337911 | 1471413 | -55,92% |
| **Total** | **6884276** | **5894307** | **3 059512** | **-48,09%** |

| | | | | |
|---|---|---|---|---|
| Auto Vehicles(Units) | 448 | 844 | 8756 | +937,44% |
| Containers (TEUs, Units) | 6117 | 10485 | 13307 | +26,91% |
| Railcars(Units) | 71610 | 60156 | 31440 | -47,73% |
| Passengers (Units) | 9408 | 9742 | 10707 | +9,9% |

| | | | | |
|---|---|---|---|---|
| Vessel Arrivals | 2 019 | 1 769 | 1245 | -29,62% |
| Vessel arrivals, including not berthing*** | 2 451 | 2 194 | 1 824 | 16,86% |

* "% change" previous period.

** "Auto Vehicles" means Trucks, Trailers, Cars and other vehicles of similar kind.

*** Berthed other terminals but served.




**Graphs №1**: Detailed information on railcars, major commodities, containerized cargo, principal trading countries, vessel arrivals, passengers.

Related with second part of the question I can remark my opinion that some industrial enterprises can't get benefits from logistics and supply chain management services because they don't use it correctly or effectively. As a researcher I'd like to offer those enterprisers who wants to sustainable develop their business or production/services then they must work very closely with academic persons or consultants of Higher Education Institutions or Scientific – Research Centers from where they can gain very good advices according to develop their business and strategies of the enterprises.

## Results

Azerbaijan develops its non-oil sector and especially industry where the government establish different industrial parks, streets, techno-parks, business incubator centers, clusters and giving all residents of industrial parks: exemption from corporate and income taxes, land taxes, VAT (for equipment, facilities and goods imported for production purposes) for 7 years after registration and starting activity there. Besides, mentioned support from the government site is not enough for sustainable development of the industrial enterprises. Every top manager and owner of the industrial enterprises must follow three components of sustainable development: economic, social and environmental as well as follow UNIDO and UNGC principles which it gives very useful opportunities for them.

I'm sure very soon all sectors, mainly industry of the country will sustainable develop and a lot of industrial enterprisers of our country will produce their products with "Made in Azerbaijan" brand and using www.azexport.az electronic trading platform of the Republic of Azerbaijan will export their products. Indirectly all these processes will impact to our National budget and sustainable development of the economy.

***The list of literature***

*1. The State Programme on Socio-economic Development of the Regions of the Republic of Azerbaijan (2014-2018);*

*2. The State Programme on Reliable Food Supply to the Population in the Republic of Azerbaijan (2008-2015);*

*3. The State Program on the Development of Industry in Azerbaijan for the years 2015-2020;*

*4. Statistical Overview 2015, Port of Baku, Baku-2016.*

*5. Logistics: An Introduction to Supply Chain Management, Donald Waters, New York-2003, 354 p.;*

*6. http://www.senaye.gov.az/ , http://economy.gov.az/ and http://portofbaku.com/*

**Nəcimov A.A.**
*AzMİU-nun doktorantı*

## SƏNAYE MÜƏSSİSƏLƏRİN DAVAMLI İNKİŞAFINDA LOQİSTİKA VƏ TƏCHİZAT ZƏNCİRİNİN ƏHƏMİYYƏTİ

**Xülasə**

*Müəllif sənaye müəssisələrinin davamlı inkişafında logistika və təchizat zəncirinin idarə edilməsinin əhəmiyyətini nəzəri və empirik məlumatlar əsasında tədqiq etmiş və sahibkarlar / müəssisələr üçün faydalı məsləhətlərini qeyd etmişdir.*

***Açar sözlər:** Sənaye müəssisəsi, Davamlı inkişaf, Loqistika, Təchizat zəncirinin idarəedilməsi, Milli iqtisadiyyat.*

**Наджимов А.А.**
*Докторант АзАСУ*

## ВАЖНОСТЬ ЛОГИСТИКИ И УПРАВЛЕНИЯ ЦЕПОЧКОЙ ПОСТАВКИ В УСТОЙЧИВОМ РАЗВИТИИ ПРОМЫШЛЕННЫХ ПРЕДПРИЯТИЙ

**Резюме**

*Автор исследовал теоретические и эмпирические данные, связанные с важностью управления логистикой и цепочками поставок при устойчивом развитии промышленных предприятий, и отметил ряд полезных советов для предпринимателей / предприятий.*

***Ключевые слова:** Промышленные предприятия, Устойчивое развитие, Логистика, Управление цепочками поставок, Национальная экономика.*

**B.H. Şirinov**
*i.u.f.d., AzMİU*
**N.Ə. Kazımov**
*AzMİU-nun doktorantı*

## TİKİNTİ MÜƏSSƏSƏLƏRİNDƏ DÖVRİYYƏ KAPİTALININ NORMALAŞDIRILMASI METODLARI

**Xülasə**

*Dövriyyə kapitalının normalaşdırılması onun səmərəli istifadəsinə müsbət təsir göstərir. Normativdən artıq material ehtiyatlarının uzun müddət anbarlarda saxlanılması onların keyfiyyətinin aşağı düşməsinə gətirib çıxarır. Məqalədə tikinti müəssisələrində dövriyyə kapitalının normalaşdirilməsının analitik, birbaşa və əmsal metodlarlarının mahiyyəti açıqlanmışdır.*

***Açar sözlər:** dövriyyə kapitalı, norma, birbaşa metod, analitik metod, əmsal metod*

## Giriş

Dövriyyə kapitalının normalaşdırılması sahəsində başlıca vəzifə hər bir müəssisənin xüsusi dövriyyə kapitalına aid iqtisadi cəhətdən əsaslandırılmış normativlərinin işlənib hazırlanmasından ibarətdir. Həmin normativlər az xərclə istehsal prosesinin və tikinti məhsulunun reallaşdırılmasının fasiləsiz davam etməsini və hesablaşmaların müəyyən olunmuş vaxtlarda həyata keçirilməsini təmin etməlidir.

Tikinti müəssisəsi üçün dövriyyə kapitalının normalaşdırılması prosesi norma və normativin müəyyən edilməsindən başlanır.Tikinti müəssisəsi üçün material qiymətliləri qalığının pul formasında xarakterizə edilməsinə dövriyyə kapitalının norması deyilir. Tikinti müəssisəsinə pul ifadəsi ilə zəruri olan orta ehtiyat qalığına dövriyyə kapitalının normativi deyilir.

Dövriyyə kapitalının aşağıdakı növləri normalaşdırılır: əsas materiallar, konstruksiyalar, detallar və məmulatlar, köməkçi materiallar və yanacaq, azqiymətli və tezköhnələn əşyalar, köməkçi istehsalatın bitməmiş istehsalı, tikinti-quraşdırma işlərinin bitməmiş istehsalı, gələcək dövrlərin xərcləri, anbardakı hazır məhsullar.

Dövriyyə kapitalının normalaşdırılması onun səmərəli istifadəsinə müsbət təsir göstərir. Dövriyyə kapitalının normalaşdırılması maliyyə balansının ikinci bölməsi üzrə aparılır. Vəsaitin normalaşdırılması maliyyə balansının ikinci bölməsində mövcud olan vəsaitlərin normativə qarşı müqayisəsi ilə başlanır. Bu bölmədə mövcud olan dövriyyə kapitalı adətən normativə nisbətən çox olur. Bu onunla izah edilir ki normalaşdırılmış dövriyyə kapitalına olan tələbatın bir qismi cəlb edilmiş vəsaitlər hesabına təmin edilir. Əsassız olaraq normativdən artıq material ehtiyatlarının uzun müddət anbarlarda saxlanılması onların keyfiyyətinin aşağı düşməsinə gətirib çıxarır. Normativdən artıq ehtiyatların yaranmasına bəzən təchizat işinin lazımi səviyyədə olmaması, bəzən də müəssisənin material almasına ümidsiz yanaşması da səbəb olur. Bütün bunlar dövriyyə kapitalının hərəkətsiz qalmasına yaxud dövriyyə sürətinin ləngiməsinə gətirib çıxarır [1].

## Tədqiqat

Dövriyyə kapitalının hər bir növü üzrə norma müəyyən edilir. Bu normalar nisbi kəmiyyətlərlə: bir neçə günlük ehtiyatla, xərclərin məbləğinə görə faizlə, yaxud başqa nisbi kəmiyyətlərlə ifadə olunur. Dövriyyə kapitalının hər bir növü üzrə normanın həcmi müəssisənin işinin bir çox texniki-iqtisadi şərtlərindən asılıdır.

Normalaşdırılan dövriyyə kapitalının ayrı-ayrı növləri üzrə normativlər qüvvədə olan məsrəf normasından və tikinti istehsalının həcmindən asılı olaraq müəyyən edilir.Normalaşdırılan vəsaitin bütün növləri üzrə normativlərin yekunu müəssisənin öz dövriyyə kapitalının ümumi normativini təşkil edir. Müəssisənin illik maliyyə planında dövriyyə kapitalının artması və azalması nəzərdə tutulur [2].

Normalaşdırılmış dövriyyə kapitalı əsas etibarilə müəssisənin maliyyə mənbəyi, krediti və kreditor borcları hesabına yaradılır.

Dövriyyə kapitalının normativi aşağıdakı metodlarla müəyyən edilir: analitik, birbaşa və əmsal.

Analitik (iqtisadi) metod dövriyyə kapitalını orta faktiki qalıqlar və həcmin genişləndirilmiş hesablanmasının aparılması kimi təsəvvür edir. Həmin metod dövriyyə kapitalının formalaşmasına və təşkilinə təsir edən, müxtəlif amillərin uçotunu nəzərdə tutur və o hallarda istifadə olunur ki, müəssisənin iş şəraitində müəyyən dəyişikliklər nəzərdə tutulmur, material dəyərlilərinə və ehtiyatlara qoyulan vəsaitin xüsusi çəkisi çox olur.

Birbaşa metodu ən dəqiq, əsaslandırılmış, eyni zamanda da çox əməktutumludur. O dövriyyə kapitalının ayrıca elementləri üzrə ehtiyat normasının elmi cəhətdən əsaslandırılmış formada müəyyən edilməsinə və dövriyyə kapitalının normativinə əsaslanır, yəni ehtiyatın dəyər ifadəsinə, hər bir element üzrə xüsusi normativlər və bütünlüklə normalaşdırılan dövriyyə kapitalı üzrə (ümumi normativ) hesablanır.

Əmsal metodu istehsalın həcmini və məhsulun satışını, dövriyyə kapitalının dövranının sürətləndirilməsinin planlı dəyişilməsinə düzəlişin nəzərə alınmasının mövcud bazasına yeni normativin müəyyən edilməsinə əsaslanır.

Dövriyyə kapitalının elementləri istehsalın həcmindən asılı olaraq tələbat bazisində onların həcmlərinə, istehsalın artım tempinə və dövriyyə kapitalının dövrüyyəsinin sürətləndirilməsi imkanına əsasən planlaşdırılır. Ehtiyatların qalan elementləri və xərclər üzrə plan tələbatı onların orta faktiki qalıqları səviyyəsində müəyyən edilir. Dövriyyə kapitalına planlı tələbatın müəyyən edilməsinin əsas metodu birbaşa hesablama metodudur. Normalaşdırılma prosesinə daxildir :normalaşdırılan dövriyyə kapitalının bütün elementlərinin əmtəə-maddi dəyərlilərinin ayrı- ayrı növləri üzrə ehtiyat normasının işlənməsi;dövriyyə kapitalının hər bir elementi üzrə xüsusi normativlərin müəyyən edilməsi;xüsusi normalaşdırılan dövriyyə vəsaiti üzrə ümumi normativin hesablanması.

İstifadə olunma vaxtından asılı olaraq əsas materialların məsrəf normaları üç üsulla müəyyən olunur: cari, orta illik və perspektiv.

Qısa vaxt ərzində (on gün, ay və yaxud bir neçə ay) konkret iş şəraitində istifadə olunan normalara cari normalar deyilir.

İcra olunacaq tikinti məhsulu üçün, orta hesabla il ərzində əsas materialların məsrəfini müəyyənləşdirən normalara orta illik normalar deyilir.

Bir ildən artıq müddət üçün müəyyən edilən normalara isə perspektiv normalar deyilir.

## Nəticə

Sadaladığımız normalardan əlavə digər normalardan da istifadə etmək olar. Köməkçi material yanacaq, elektrik enerjisinin məsrəf normaları, istehsalın konkret şəraiti və icra edilən tikinti məhsulunun xarakterindən asılı olaraq müəyyən göstəriciyə əsasən hesablanır.

Xammal və əsas materiallar üzrə dövriyyə kapitalının normativini müəyyənləşdirmək üçün onların orta günlük məsrəfini ehtiyat günlərinə vurmaq lazımdır.

$$D_N = X \bullet E_k$$

Burada: $D_N$ – dövriyyə kapitalının normativi;

$X$ – əsas materialların, bir günlük məsrəfi, manat;

$E_k$ – ehtiyat günləri normasıdır.

Konstruksiyalar və detallar üzrə normativ müəyyən ediləndə, işlərin təşkili layihəsində, tikinti meydançasında konstruksiyaların və detalların komplektləşdirilməsi nəzərdə tutulur. Belə halda hazırlıq ehtiyatını hesablayanda ona lazım olan vaxtı nəzərə almaq lazımdır.

Əgər konstruksiyaların və detalların komplektləşdirilməsi müddəti onların quraşdırılması dövründən çoxdursa, onda həmin dövr üçün dövriyyə kapitalı belə müəyyən edilir [3].

$$K = [Kk + (Kk \bullet Q)] / 2$$

Burada: K – komplektləşdirilmə dövründə dövriyyə kapitalının norması, gün;

Kk – konstruksiyaların və detalların komplektləşdirilməsi dövrü, gün;

Q – konstruksiyaların və detalların quraşdırılması dövrü, gün.

Əgər konstruksiyaların və detalların quraşdırılması nəqliyyat vasitələrindən (təkər üzərində) saat qrafiki üzrə həyata keçirilirsə, onda belə ehtiyatın hesablanması aparılmır. Dövriyyə kapitalının normalarını hesablayanda nəqliyyat, hazırlıq, cari (anbar) və sığortaehtiyatlarıvə sairi nəzərə almaq lazımdır.

***İstifadə edilmiş ədəbiyyat***


***1.*** *Qeybullayev Q.R., MəmmədovM.A., EyniyevT.T "İnşaatın iqtisadiyyatı." Bakı,2002,379 s.*

***2.*** *Ришар Жак. Анализ хозяйственной деятельности строительного предприятия. М. ЮНИТИ, 2007.*

***3.*** *Совицкая Г.В. Анализ хозяйственной деятельности предприятия: учебник для средних специальных учебных заведений. М.: ИНФРА – М., 2007.*



**Щиринов Б.Г.**
*Д.ф.п.э., АзАСУ*
**Кязимов Н.А.**
*Докторант АзАСУ*


***Методы нормирования оборотного капитала на строительных предприятиях***

**Резюме**


*Нормирование оборотного капитала благотворно влияет на его эффективное использование. Долгое хранение запасов материалов сверх нормативов на складах приводит к снижению их качества. В статье раскрывается значение аналитического, прямого и коэффициентного методов нормирования оборотных средств на строительных предприятиях.*



***Ключевые слова:*** *оборотный капитал, норма, прямой метод, аналитический метод, коэффициентный метод*



**Shirinov B.Q.**
*Doctor of philosophy in economics, Azerbaijan Architecture and Construction University*
**Kazımov N.A.**
*Azerbaijan Architecture and Construction University*


***Fixed capitalization methods in construction companies***

**Abstract**


*Securing the holding capital has a positive effect on its effective use. Storing the stocks for a long time in normative terms causes their quality to fall. The nature of analytical, direct and precedential methods of normalization of operating capital in construction enterprises is explained.*



***Key words:*** *circulating capital, norm, direct method, analytical method, precedent method*

**Ə.M. Əliyev**
*dosent, AzMİU*
**Mohsen Ali oğlu Rajabimatak**
*AzMİU-nun doktorantı*

# SIĞORTA ŞİRKƏTLƏRİNİN RƏQABƏTQABİLİYYƏTLİYİNİN YÜKSƏLDİLMƏSİNİN İDARƏETMƏ ÜSULLARI

**Xülasə**

*Məqalədə risklə bağlı sahibkar qərarlarının qəbul edilməsində,sahibkarın informasiyalarla tanışlığı, ixtisas hazırlığı səviyyəsi, işgüzar keyfiyyətlərinin böyük rolundan danışılır. Burada müəllif sığorta şirkətlərinin rəqabətqabiliyyətliyinin yüksəldilməsinin idarəetmə üsulların təkmilləşdirilməsi, sığorta risklərin müəyyənləşdirilməsində mühüm yeri tutan, təsiredici nəzarət sisteminə xüsusi diqqət yetirilir.Məqalədə sığorta şirkətlərin rəqabətqabiliyyətinə təsir edən bütün risk ehtimalları nəzərdən keçirilir və təsnifatlaşdirilir: siyasi, hüquqi, əməliyyat və s. Müəlliflər risk menecmentin təkmilləşdirilməsinə dair bir neçə təkliflər irəli sürür.Məqalənin sonunda müəlliflər ümumiləşdirilmiş nəticələri sistemləşdirmişdir.*

***Açar sözlər:*** *sığorta bazarı, sığorta xidməti, risk menecmenti, risk portfeli, investisiya riskləri*

## Giriş

Sığorta bazarının xarakterik xüsusiyyətlərindən biri də nəticələrin öncədən təsbit olunmasının qeyri mümkünlüyü və riskli olmasıdır. Buradan da sığorta menecmentinin əsas xüsusiyyətləri risk şəraitində idarəetmə meydana çıxır. Belə bir şəraitdə menecerlərin əsas vəzifələri-risklərdən qaçmaq, onları öncədən görərək, neqativ nəticələrin minimuma endirilməsinə nail olunmasıdır. Ona görə ki, risk hər zaman vardır. Sığorta münasibətləri şəraitində risklərin məqsədyönlü şəkildə qarşısının alınması cəhdləri risklərin idarə edilməsi və ya risk (maliyyə təhlükələrin) menecmenti adlanır.

Risk menecmenti sığorta riskinin gerçəkliyə yaxın səviyyəsi və həcminin təsbit olunması, sığortalanmanın iqtisadi nəticələrinin qiymətləndirilməsi, ehtimal edilən neqativ nəticələrin aradan qaldırılması yollarının həyata keçirilməsinə imkan yaradır.

## Sığortada maliyyə risklərin idarə edilməsi

Sahibkar riski obyektiv (xarici) və subyektiv (daxili) faktorların təsiri ilə meydana gəlir.Sahibkarlıq fəaliyyətində gələcəkdəki qeyri-müəyyənliyin qarşısının alınması qeyri mümkündür, çünki obyektiv gerçəkliyin elementidir. Risk sahibkarlığa aiddir və onun iqtisadi həyatının ayrılmaz hissəsidir. Risk iqtisadiyyatda real proseslərlə bağlıdır. Riskin obyektivliyi elə bir faktorların mövcudluğu ilə şərtlənir ki, onlar sahibkarların fəaliyyətindən asılı deyildir.

Risklə bağlı sahibkar qərarlarının qəbul edilməsində onun informasiyalarla tanışlığı, ixtisas hazırlığı səviyyəsi, işgüzar keyfiyyətləri böyük rol oynayır. Sahibkar icraçıların peşəkarlığına inandığı zaman riskli qərarların qəbul edilməsinə meylli olur. Eyni zamanda, risklərə getməyə hazır olmasına bir sıra amillər təsir göstərir: eyni şəraitdə qəbul edilən qərarların nəticələri; analoji şəraitdə buraxılan səhvlər isə daha ehtiyatlı strategiyaların qəbul edilməsini tələb edir.Riskli layihələrdə sahibkarın prinsipial qərarları qəbul etməsinə layihəyə sərf edilən

gözlənilən gəlirdən (rentabellikdən) və etibarlı olmasından asılıdır. Bu isə, öz növbəsində, risksizlik, mənfəətin əldə edilməsi kimi qavranılır [1.2].

İnkişaf səviyyəsinin erkən mərhələlərində sığorta konsepsiyaları və prosesləri əsasən fiziki aktivlərin - mülkiyyətin, yüklərin və nəqliyyatın qorunmasına, həmçinin insan həyatının sığortalanmasına istiqamətlənmişdir. Son on illiklərdə dünyada sığorta şirkətlərinin təklif etdikləri xidmətlərin siyahısı yəni aktivlərin qorunmasından korporasiya gəlirlərinin müəyyən itkilərdən qorunmasına qədər əhəmiyyətli dərəcədə genişlənmişdir. Belə ki, istehsal fasilələrindən sığortalanma korporativ gəlirlərin qorunması və sığorta hadisəsi zamanı dayanmış istehsal prosesinin bərpasına imkan yaradır. Daxili və xarici bazarlarda işləyən şirkətlər bu vasitələrlə öz fəaliyyətlərini tənzimləyir və gəlirlərini müdafiə edirlər.

Lakin eyni zamanda qeyd etmək lazımdır ki, ətraf mühitin və əməyin mühafizəsi ilə bağlı bir sıra qanunvericilik aktlarının qəbul edilməsi cəmiyyətdə hüquqi mədəniyyətin yüksəldilməsinə sığorta bazarında mülki və vətəndaş məsuliyyətinin əhəmiyyətli dərəcədə artmasına səbəb oldu. Məsələn, qonşu ölkələrdə, misal üçün Rusiyada 40 növ icbari sığorta növü vardır ki, həmin sığorta növləri insan həyatı və ətraf mühitin mühafizəsi ilə bağlıdır. Sözügedən sığorta növü müəssisələrin gəlirlərinin müştəri, əməkdaş və yaxud üçüncü şəxslərin iddialarından qorunmasına imkan yaradır.

Daha bir mühüm sığorta növü - əməkdaşların qruplarla sığortalanmasıdır. Burada söhbət pensiya, əmək qabiliyyətinin itirilməsi və bədbəxt hadisələrdən sığortalanmadan gedir. Qeyd edilən sığorta növləri korporativ aktivlərin birbaşa qorunması ilə bağlıdır, çünki sığortalanma olmadıqda vəsaitlər müəssisələrin vəsaitləri hesabına ödəniləcəkdir.

Ötən əsrin 60-cı illərindən başlayaraq, bütün iri şirkətlər öz sığorta sistemlərini və yaxud keptiv sığorta şirkətlərini yaratmağa başladılar. Onların əsas təyinatı qlobal iqtisadiyyat çərçivəsində sığorta məhsullarının satın alınması idi. Müxtəlif qiymətləndirmələrə görə dünyada 4200-dən yuxarı keptiv sığortaçı vardır. Azərbaycanda və İranda hal-hazırda keptiv sığorta şirkətlərin dəqiq sayı məlum deyildir. Lakin Rusiyada müqayisə üçün sığorta şirkətləri içərisində 50 iri şirkət ("PSK" ASK, SQ BSK "Soqlasiye", "ROSNO" ASK, "RESO-Qarantiya" ASK) Rusiya sığorta bazarının 80%-nə nəzarət edir [3]. Həmin şirkətlərin əksəriyyəti eyni şirkətlərin, yəni qrup məsuliyyətində olan şirkətlərin törəmə şirkətləridir.

Qeyd etməliyik ki, indiki dövrdə riskin menecmentinin bir neçə tərkib hissəsi vardır [6]:

- riskin ölçülməsi, onun əsasını ehtimal nəzəriyyəsinin postulatları, qərarların təhlili və qərarlar işləmədiyi zaman itkilərin təbiəti və miqyaslarının təhlili təşkil edir;
- risk strategiyası, yəni risk menecmentinin inteqrasiyası, diversifikasiya və istehsal göstəricilərinin aşağı düşməsi ilə riskin təhlili;
- əməliyyat riski, yəni əməyin təhlükəsizliyi, məhsulun keyfiyyəti, autsorsinq, məsrəfli əməliyyatların kənar şirkətlərə verilməsi;
- siyasi risklər, yəni dövlət tərəfindən hüquqi müdaxilə problemi, siyasi qeyri - sabitlik, rüşvətxorluq, insanların oğurlanması və s.;
- sistem riski, yəni maliyyə sistemlərinin mahiyyəti, layihə maliyyələşdirmələrində azalma üsulları;
- ekoloji risklər, yəni təbii fəlakətlərin təsiri, proqnozlaşdırma metodlarının təkmilləşdirilməsi, sığortalanma, tikinti kodekslərinə əməl olunması, fövqəladə vəziyyətin nəticələrinin aradan qaldırılması;
- yeni risklər, yəni maliyyə tənzimlənməmələrinin təsiri altında baş verən dəyişikliklər, İnternetin gəlişi, cəmiyyətdə korporativ maraqlarının qəbul edilməməsi və s.

Risk menecmentinin mürəkkəbləşən tələbatları sığorta və maliyyə bazarlarının qovuşmasını stimullaşdırır. Bazarda təklif edilən yeni sığorta formaları istehsal-maliyyə alətlərinə çox bənzəyirlər, bu isə o, deməkdir ki, müstəqil maliyyə institutu kimi sığortanın imkanları məhduddur. Qeyd edilən tezis maliyyə bazarlarının instituonal inkişafından xəbər verir. Maliyyə bazarlarının kompleksli inkişafı ilə əlaqədar nümunə kimi maliyyə təzahürləri, risk menecmenti baxımından sığorta bazarı, sığortalanmanın layihə maliyyələşdirilməsi və onun risk menecmenti sahəsində mövcud problemlərin həllində rolunun araşdırılmasının mühüm əhəmiyyəti vardır [4,5].

Qeyd etməliyik ki, şirkətin risk portfelini müəyyənləşdirən istənilən şirkətin rəhbəri hər şeydən öncə şirkətə təhlükə yaradan ən əhəmiyyətli risklərin təhlili ilə öz işinə başlayır. Təhlillərin nəticəsinə görə hansı risklərin məqbul hesab olunması, hansı həcmlərdə itkilərin dəyərinin qarşılanmasının mümkünlüyü təsbit olunur.

Risklərin müəyyənləşdirilməsində mühüm yeri, təsiredici nəzarət sistemi tutur. Bütün risk ehtimalları nəzərdən keçirilir və siyasi, hüquqi, əməliyyat və s.risklərə nəzarət olunur.

Risklər müəyyənləşdirildikdən sonra onları prioritetlərə görə sıralamaq lazımdır. Eyni zamanda, onların nəticələri təkcə maliyyə baxımından deyil, həm də, ümumi korporativ qərarlara təsir edilməsi baxımından da müəyyənləşdirilməlidir. Permanent monitorinq nəzarətin mühüm tərkib hissəsidir, lakin bununla iş bitmir. İri şirkətlər getdikcə daha çox yeni risk növləri ilə qarşılaşmalı olurlar, yeni risklər ilkin və ənənəvi sxemlərə uyğun gəlmirlər. Həmin müəssisə və təşkilatların rəhbərlərinin qarşısında əsas vəzifə bütün risklərə qarşı zəruri tədbirlərin həyata keçirilməsinə hazır olmaqdır. Qeyd etmək lazımdır ki, yeni risklərin idarə olunması strategiyası heç də hər zaman qarşıya qoyulan məqsədlərə nail olunmasına xidmət edə bilmir. Yeni risklərin korporativ təhlükələrinə əlavə olaraq sosial və hüquqi aspektləri də əlavə etmək olar, çünki onlar son nəticədə korporasiyanın simasına (imicinə) əhəmiyyətli təsir göstərirlər.

Sığorta risk menecmentinin üsul və vasitələrindən biri kimi bu prosesdə bilavasitə iştirak etməlidir. Müasir risk menecerləri qarşısında dayanan əsas vəzifə- ehtimal edilən risklərin minimallaşdırılmasıdır və sığorta bu kompleksdə mühüm yer tutmalıdır. İqtisad elminin və sığortanın sahəsi kimi risk menecmentinin inkişafı bundan asılıdır.

Qeyd olunduğu kimi, risk menecmentində tələbatların mürəkkəbləşməsi sığorta və maliyyə bazarlarının birləşməsi, qovuşması ilə nəticələnmişdir. Maliyyə bazarları institusional inkişaf yolu keçmiş, lakin yenə də sığortanın müstəqil maliyyə aləti kimi çıxış etməsində bir sıra məhdudiyyətlər vardır. Sığortanın risk menecmenti sahəsində rolunun göstərilməsi üçün xüsusi sxem hazırlanmışdır (şəkil 1.).




**Şəkil 1. Müəssisə hüdudlarındakı sığorta riskləri (müəlliflər tərəfindən hazırlanmışdır)**

Ölkəmizdə risk menecment ideologiyası kifayət qədər spesifikdir.Qeyd etməliyik ki, sığorta şirkətlərində risklərin idarə olunması probleminin mahiyyəti aktivlərin və vəzifələrin rasional birləşdirilməsi və yaxud uzlaşdırılması ilə bağlıdır. Lakin eyni zamanda qeyd etmək lazımdır ki, sözügedən idarəetmənin əsasını aktiv və passivlərə uyğun investisiya risklərinin idarə olunması təşkil edir, burada, həmçinin ikinci hissə sığorta ehtiyatlarının (rezervlərinin) faydalılığı və gəlirliliyi də nəzərdən qaçırılmamlıdır. Risk və gəlirlilik arasında rəqabət onlar arasında rasional münasibətlərə diqqət yetirilməsi zərurətini yaradır. Bu müddəaların aşkarlığı praktikada bir çox əngəllərdə öz əksini tapmışdır.

Mənfəətin əldə olunması və risklər bir biri ilə sıx bağlı olan anlayışlarıdır. Fond bazarlarında risklər olmuşdur və hər zaman olacaqdır. Sığorta şirkətləri istənilən maliyyə vasitələri ilə bağlı riskləri avtomatik olaraq qəbul edirlər.

Təklif etdiyimiz tədbirlərin mahiyyəti idarəetmə sisteminin tətbiqi ilə risklərin, məsrəflərin minimallaşdırılması, investisiya portfeli və maliyyə axınlarının idarə olunmasının optimallaşdırılmasıdır.

Əldə etdiyimiz təcrübələr göstərir ki, xarici mühitin keyfiyyəti ilə bağlı vəziyyətindən asılı olaraq, ssenari yanaşmalarından istifadə edilməlidir:

-optimist proqnoz;

- orta, ölçülüb-biçilmiş (düşünülmüş) proqnoz.

Sözügedən investisiya yanaşmasının reallaşdırılmasının birinci mərhələsi bazarın potensial həcminin qiymətləndirilməsidir.

Təhlillərin tam və bütöv olması üçün layihə reallaşdırıldıqdan sonrakı vəziyyəti öncəki vəziyyətlə müqayisə edilməsinə ehtiyac vardır.

Qərb reytinq agentlikləri və ölkəmizdəki analitiklərin qiymətləndirmələrinə görə respublikada sığorta bazarı artan investisiya böhranına baxmayaraq aşağıdakı keyfiyyət dəyişikliklərinə məruz qalacaqdır:

-investisya fəaliyyətinin ümumi həcminin artması;

-sığorta bazarlarının birləşməsi və udulması (bazardan qeyri səmərəli fəaliyyət göstərən, kiçik şirkətlərin sıxışdırılması, onların kəmiyyətinin azalması);

-sığorta xidmətlərində struktur dəyişiklikləri;

-sığorta qanunvericiliyinin təkmilləşdirilməsi və onun icratına nəzarətin gücləndirilməsi;

-sığorta möhtəkirliyinə qarşı mübarizə üsullarının hazırlanması.

Yuxarıda deyilənlərdən aşağıdakı qənaətə gəlmək mümkündür:

- əvvəla yaxın illərdə sığorta xidmətlərinə tələbat və ümumi artım tendensiyalarında mürəkkəb trendlər diqqəti cəlb edəcəkdir;

- ikincisi, sığorta şirkətlərinin normativ bazasının kifayət qədər inkişaf etməməsi, sığortaçıların maraqlarının lobbiləşdirilməsi və onların korrupsiyalılığı, həmçinin ən yüksək, dövlət səviyyəsində qeyri səmərəli menecmentinin təşkili sığorta sahəsində hələ uzun illər ərzində qarmaqarışıqlıq üçün əlverişli zəmin yaradacaqdır, sığorta bazarında vicdanlı rəqabətdən söhbət gedə bilməz.

Qeyd etməliyik ki. sığorta şirkətlərinin strategiyasının səmərəliləşdirilməsi konkursa (tenderlərə) əsaslanır.Tenderdə hüquqi və fiziki şəxslər iştirak edə bilər, müsabiqə şərtləri və qaydaları informasiya xəbərlərində öz əksini tapır, sənədləşdirmə qaydaları aşağıdakı sənədlərlə həyata keçirilir:

- ərizə;
- bank tərəfindən təsdiq edilmiş ödəniş sənədi;
- ayrıca konvertdə möhürlənmiş halda, konkret portfel üzrə təkliflər;
- nümayəndənin adına verilmiş etibarnamənin rəsmiləşdirilməsi;
- rəhbərin səlahiyyətlərini təsdiq edən sənədlər;
- dəyişiklik və əlavələrdə daxil olmaqla təsisedici sənədlərin notarial qaydada təsdiqi;
- dövlətin, dövlət və yerli idarəetmə orqanları, ictimai və xeyriyyə təşkilatları, fondların nizamnamə kapitalında payının çəkisi;
- üç illik fəaliyyəti dövründə balans hesabatlarının surəti;
- minimal həcmi 10000 əmək haqqı ödənişləri dəyərində müqavilələr bağlanarkən vergi müfəttişliyindən arayışların alınması.

Qeydiyyatdan keçdiyi zaman ərizə verən tərəfə bildiriş verilir və bildiriş alan tərəf auksion iştirakçısı statusu alır. Tenderlərin keçirilməsi şərtləri kommersiya sirri deyildir, bu məlumatlar müxtəlif üsullarla potensial iştirakçılara çatdırıla bilər. Hesab edirik ki, iki tender keçirilməlidir:

- sığorta şirkətinin investisiya konsepsiyası;
- real investisiya portfeli.

Ancaq kompleks xidmətlər göstərən injinirinq şirkətlərinə üstünlük verilir. Burada əsas meyyar "qiymət/keyfiyyət və yaxud "qiymət/müddət" nisbətlərinə verilir.

Şübhəsiz təklif edilən şərtlər ixtisaslaşdırılmış komissiya tərəfindən öncədən müəyyənləşdirilmiş müddətdə nəzərdən keçirilməlidir.

Sorğu aparılarkən komissiya ekspert rəyi formasında fikirlərini bildirməlidir. Azərbaycan spesifikası korrupsiya və digər neqativ hallardan yayınmaq üçün belə bir yanaşmanı tələb edir.

Tədqiqatımız göstərdi ki, əsas suallar kimi aşağıdakıların qeyd edilməsi yerinə düşərdi:

- Layihəni hazırlayanın bazardakı nüfuzu;
- Bənzər layihələrdə iştirak təcrübəsi;
- Xidmətlərin smeta dəyəri;
- Podrat üzrə xidmətlərə görə ödənişlərin müddəti və qrafiki;
- Layihələrin icrası üçün kreditlərin cəlb edilməsi imkanları.

Podratçıların sıralanması - ekspert dəyərləndirmələri ilə tender iştirakçıları suallara bəzən cavab tapa bilirlər: kiminlə investisiya müqaviləsi bağlanmalıdır?

Müqavilədə maliyyələşdirmə şərtləri, portfelə daxil edilən konkret layihələrin reallaşdırılması müddəti və investisiyalaşdırılması müəyyənləşdirilməlidir.Tender mərhələsi bitdikdən sonra layihənin reallaşdırılması mərhələsi başlanır.

Sığorta sirkətləri investisiya əməliyyatları həyata keçirərək bu əməliyyatlardan mənfəət əldə edir və bununla da valyuta və iqtisadi bazarlardakı vəziyyətdən asılılıqları, müvafiq olaraq investisiya riskləri də artır. Nəticədə şirkətlər investisiya siyasətlərində ehtiyatlı olmağa çalışırlar. Sığorta şirkətlərinin investisiya siyasətlərinin cavab verməli olduğu əsas kriteriya etibarlı və mənfəətli olmağlıdır. Vəsaitlərin itirilməsi investisiyalar yatıran sirkətlərin müqavilə öhdəliklərini yerinə yetirməməsinə, müflisləşməsinə səbəb ola bilər. Məsələyə başqa bir bucaq altında baxdıqda görürük ki, sığortaçı sərf edilən vəsaitlərdən daha çox gəlir əldə etməkdə maraqlıdır. O anda, adətən, yüksək əmək haqqı etibar səviyyəsinin aşağı düşməsi ilə müşayiət olunur. Bu səbəbdən də sığortaçı müəyyən edilmiş məqsədlərin harmoniyasına nail olmalı, optimal hesablamalar aparmalıdır. Sığorta şirkətləri idarə olunarkən, investisiya siyasəti həyata keçirilərkən bu prinsiplərə, diversifikasiya, dönərlilik, likvidliyə əməl etməlidir.

İnvestisiya siyasəti həyata keçirilərkən vəsaitlərin itirilməsi və təşkilatların ödəniş qabiliyyətlərini itirməsi riskinin qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Sözügedən qiymətləndirmələrin aparılması üçün ödəniş qabiliyyətinin təhlili metodologiyası, həmçinin ekspertlərin peşəkar  qiymətləndirmələrindən istifadə edilir. Təhlillərdə məqsəd təkcə cari vəziyyətin qiymətləndirilməsi deyil, eyni zamanda onun ehtimal edilən konfiqurasiyalarının təsbit olunmasdır.

Qeyd etmək lazımdır ki, sığorta portfellərinin keyfiyyətinin təhlili elə aparılmalıdır ki, sığortalayan öz imkanlarını real qiymətləndirə bilsin, lazım gəldikdə təkrar sığortalanma strukturuna müvafiq düzəlişlər etsin.

Risklərin müvəqqəti bölgüsü mövqeyindən portfelin rasional formalaşdırılması sığortaçıların ən mürəkkəb vəzifələrindən biridir, çünki sığorta növündən asılı olaraq risklərin müvəqqəti bölgüsü fərqli həyata keçirilir. Maliyyə çətinliklərindən özünü təcrid etmək üçün sığorta şirkətləri təkrar sığortalanmadan istifadə edirlər. Sığortalayan maliyyə imkanlarına uyğun, öz üzərinə götürdüyü öhdəliklər limitini müəyyənləşdirir. Sığorta təşkilatlarına nəzarət orqanları vasitəsi ilə sığorta şirkətlərinə məxsus vəsaitlərin 10%-i qədər maliyyə risklərinin həcmi təsbit olmuşdur. Normadan artıq riskləri isə sığorta şirkətləri təkrar sığortalanmaya verməlidirlər. İranın sığorta bazarı üçün öz vəsaitlərinin kifayət qədər olmaması xarakterikdir, bu səbəbdən də sığortalayanlarda qalan vəsaitlərin həcmi də kifayət qədər deyildir.

Risklərin bir qisminin təkrar sığortalanmaya verilməsi sığorta şirkətinə ehtiyat fondlarının həcmini azaltmağa imkan verəcəkdir. Bu isə öz növbəsində, kifayət qədər kapitalı olmayan şirkətlərin fəaliyyətlərini davam etdirmələri üçün xüsusi əhəmiyyət kəsb edir. Göründüyü kimi, təkrar sığortalanmanın tətbiqi ehtiyat fondları az olan sığorta şirkətlərində maliyyə dayanıqlılığının saxlanmasına imkan yaradır.

Eyni tipli, kiçik sığorta risklərini öz üzərinə götürən şirkət fövqəladə hallarda həmin riskləri eyni zamanda icra etməlidir, bu isə arzuolunmazdır. Nəticədə kiçik risklər toplanaraq risklərin həcmi həddindən artıq böyüyür və iri həcmli vəsait itkilərinə səbəb olur.

## Nəticə

Yuxarıda qeyd edilən məqsədlərlə yanaşı əməkdaşların risklərin idarə olunması prosesində birləşməsi ayrı-ayrı əməkdaşların bilik və ixtisas səviyyəsinin yüksəlməsinə, həmçinin kollektivdə mənəvi-psixoloji mühitin yaxşılaşmasına səbəb olur. Risklərin idarə olunması vasitələri seçilərkən qərarların qəbul edilməsi nəzəriyyəsi mühüm rol oynayır. Riskin səviyyəsi təsbit olunur-rəqəmsal risk. Risk metodları kollektiv və şəxsi qərarlarla qəbul edilə bilər: yuxarı instansiyalar, iyerarxiyanın orta halqasındakı əməkdaşlar, icraçılar.

Qeyd etməliyik ki, Azərbaycan Respublikasında sığorta şirkətlərində risklərin idarə olunmasında risk menecment sistemi mühüm rol oynayır. Qərarlar ayrı-ayrı maliyyə alətlərinin konkret investisiya qərarlarına uyğun istifadə olunması imkanlarına əsasən qəbul olunur, risk faktorları, risk və gəlirlərin ekvivalentliyi nəzərə alınır.

Risklərin idarə olunması sığorta şirkətlərinin əlverişsiz zamanlarında ödəniş qabiliyyətinin itirilməsi riskinin qarşısını alır. Beynəlxalq praktikada geniş yayılmış stress testləşdirmə analitik vasitələrdən biridir, çətin iqtisadi vəziyyətlərdə və böhranlarda məsrəflərin qiymətləndirilməsini təmin edir.

## *İstifadə edilmiş ədəbiyyat*


**1.** *Xankişiyev B.A., «Sığorta hamı üçün», Bakı, 2005- 165 s.*

**2.** *Xudiyev N.N. «Sığorta «. Bakı.»Azərnəşr», 2003.- 450 s.*

**3.** *Заверюха А. Х., Ульянов Е. В., Меньшикова О. А. Концептуальные подходы к регулированию взаимодействия инвестиционной и инновационной сфер //Финансы - М., 2000-№1*

**4.** *Ивашкин Е.И. Взаимное страхование: теория, потребность, проблемы организации и развития. - М.: РЭА им. Г.В.Плеханова, 2000. - 126 с.*

**5.** *Ивашкин Е.И. Теоретические основы и практика страховой защиты субъектов предпринимательства. Учебное пособие. - М.: 2001.*

**6.** *Ильин С.В. Страховое дело в России (XIX начало XX в.) - М.: ЭКОН, 2001. - 197 с.*



**А.М.Алиев**

*к.э.н., доцент АзАСУ*

**Мохсен Али оглы Раджабиматак**

*докторант АзАСУ*


## *Управленческие методы роста конкурентоспособности страховых компаний*


**Резюме**

*В статье говорится о принятии рискованных управленческих решений предпринимателей, об их возможностях доступа к информации, большой роли предпринимательских качеств. Здесь автор уделяет особое внимание таким вопросам как совершенствование управленческих методов роста конкурентоспособности страховых компаний, системе контроля за финансированием страховых рисков. В статье*

*рассматриваются и классифицируются все возможные риски, связанные с конкурентоспособностью страховых компаний: политические, правовые, операционные и т.д. Автор выдвигает ряд предложений по совершенствованию риск менеджмента. В конце статьи автор приводит свои обобщенные выводы по исследуемой теме.*

***Ключевые слова:*** *страховой рынок, страховой сервис, риск менеджмент, рисковый портфель, инвестиционные риски*

**A.M.Aliyev**
*Candidate of Economic Sciences, assistant professor*
*Azerbaijani Architecture and Construction University*
**Mohsen Ali Rajabimatak**
*doctoral Azerbaijani Architecture and Construction University*

***Managerial approaches of growth of competitiveness of insurance companies***

**Abstract**

*In article it is told about acceptance of risk management decisions of entrepreneurs, about their opportunities of access to information, a big role of entrepreneurial qualities. Here the author pays special attention to such questions as enhancement of managerial approaches of growth of competitiveness of insurance companies, the control system behind financing of insurance risks. In article all possible risks connected with competitiveness of insurance companies are considered and classified: political, legal, operational, etc. The author makes a number of suggestions for improvement ofriskmanagement. At the end of article, the author gives the generalized conclusions on the researched subject.*

***Keywords:*** *insurance market, insurance service, risk management, risk portfolio, investment risks*

*UOT 338;658*

**M.A. Məmmədov**
*i.e.d., professor, AzMİU*
**T.K.Kulu**
*AzMİU-nun doktorantı*
**R.A.Babayev**
*AzMİU-nun doktorantı*

**Avropanın enerji təhlükəsizliyinin təminatında Azərbaycanın rolu**

**Xülasə**

Məqalə Azərbaycanın Avropanın bir sıra inkişaf etmiş ölkələrinin enerji təhlükəsizliyinin təmin olunmasında oynadığı roluna həsr edilib. Bu baxımdan məqalədə “Cənub qaz dəhlizi” layihəsinin Azərbaycan və layinənin iştirakçısı olan digər ölkər üçün önəmliliyi şərh edilir.

Eləcə də layihənin Azərbaycan iqtisadiyyatının inkişafına verəcəyi töhfə əsaslandırılır. Həmçinin göstərilir ki, bu layihə Avropada enerji sahəsində rəqabət mühitini inkişaf etdirəcək və davamlı iqtisadi təhlükəsizliyi təmin edəcəkdir.

**Açar sözlər**: “Cənub qaz dəhlizi”, “Şahdəniz-2”, “TAP”, TANAP” qaz, enerji, infrastruktur, layihə, iqtisadi təhlükəsizlik, iqtisadi tərafdaşlıq.

## Giriş

2015-ci ilin oktyabr ayında “The Daily Caller” nüfuzlu xəbərlər internet saytında məqalə dərc oluşmuşdur və orada göstərilir ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin başlıca qarantıdır. Məqalədə Azərbaycanın, o cümlədən onun tərkib hissəsi olan Dağlıq Qarabağın siyasi və iqtisadi mənzərəsi əks olunur. Azərbaycan Avropanın iqtisadi və xüsusilə enerji palitrasında əsas iştirakçılardan biri kimi xarakterizə olunur. Keçmiş SSRİ-nin ərazisində Azərbaycan, Rusiya və İran ərazisində kəsişməyən neft kəməri tikən yeganə ölkə sayılır. Bakı-Tbilisi-Ceyhan yalnız Amerikanın Alyaskadakı boru kəmərindən sonra dünyada həcminə görə ikinci boru kəməri sayılır. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri OPEK, Rusiya və İran neftinin alternativi qismində Azərbaycan neftindən istifadə edən Qərbə neftin fərqli daşımasının alternativ kimi çıxış edir, bundan əlavə İsrailin idxal etdiyi neftin 40 faizini Azərbaycan nefti təşkil edir.

Hazırda Azərbaycan “Britişh Petroleum” və digər şirkətlər kimi öz Qərb tərəfdaşları ilə birgə Rusiyadan və İrandan yan keçərək, Avropanın Moskvadan problemli enerji asılılığını zəiflətməyə kömək edərək Qərb bazarlarını neftlə təmin edəcək qaz kəmərləri tikir. Bütün bunlar onu göstərir ki, Azərbaycan Avropanı enerji daşıyıcıları ilə təmin etməkdə etibarlı tərəfdaşa çevrilmişdir [7].

ümumi qiyməti, yerləşməsi üzrə differensiyası, istifadə edilməsi səmərəliliyi müəyyən edilməlidir.

Beləliklə, konsessiya obyektinin miqyası və funksional bölüşdürülməsi qiymətləndirilməli, sahibkarın sərf etdiyi xərclərin miqdarı və onun səmərəli olub – olmaması müəyyən edilməlidir. Sonra isə konsessiya obyektlərinin istifadəsindən alınan mənfəətin kəmiyyəti, müəyyən edilməlidir.

Konsessiya infrastruktur obyektlərindən ən yaxşı istifadə olunanı və gəlirlisi seçilir, başqa sözlə, onun renta dəyəri qiymətləndirilir. Burada gəlir gətirən və fiziki reallaşdırılması mümkün olan, norma və qaydalara cavab verən variantlar nəzərə alınırlar. Konsessiya razılaşması çərçivəsində infrastruktur obyektin maksimum qiyməti olan variantı seçilir və tikinti, ekoloji və digər məhdudiyyətlər nəzərə alınır.

Əgər konsessiya torpaq sahəsi tikililərdən azaddırsa, onda onun səmərəli istifadə edilməsi imkanları müəyyən edilir. Əgər konsessiya torpaq sahəsində tikililər vardırsa, onda həmin tikililərin dəyəri və sökülməsi xərcləri təhlil edilir və reallaşdırılan layihənin kəmiyyətinə təsiri hesablanır. Buradan aydın olur ki, torpaq sahəsi azad olanda onun qiymətləndirilməsi sadə olur.

Konsessiya obyektinin maksimum renta dəyərini müəyyən etmək üçün ən səmərəli variant azad torpaq sahəsi və ya bütün əmlak kompleksi və onun müəyyən hissəsi seçilməlidir. Konsessiya layihəsinin reallaşdırılması dəyərini müəyyən etmək üçün qəbul edən tərəfə onun əhəmiyyəti göstərilməlidir. Konsessiya layihəsi ölkənin iqtisadiyyatı üçün əhəmiyyətli olanda, onun reallaşdırılmasından sosial – iqtisadi, ekoloji, və s. səmərə alınır. Əgər konsessiya layihəsi rəqabət qabiliyyətli-dirsə, onda ölkə həmin layihənin reallaşdırılmasına maraqlı olur.

Mənzil – kommunal sferasının konsessiya infrastruktur obyektlərinin reallaşdırılmasının qiymətləndirilməsi ardıcıllığı 2 saylı şəkildə təqdim edilir.

Qəbul edən ölkə üçün priotitet konsessiya layihəsinin reallaşdırılması qiymətini aşağıda verilən düsturla hesablamaq olar:

1) Tikililərdən azad olan torpaq sahəsi üçün –

$$D_{k\ell} = X_k + И_{io} \cdot Y_{k \cdot o} / Я, \qquad (1)$$

harada - $D_{k\ell}$ – rəqabət qabiliyyətli konsessiya layihəsinin reallaşdırılması dəyəri;

$X_k$ – konsessiya sahibinin sərf etdiyi xərclər (konsessiya razılaşmasına uyğun dövlət poşlinlərinin, qeydiyyata alınma yığımlarının və s. tərtib edilməsi);

$Y_{ko}$ – azad torpaq sahəsində konsessiya obyektinin tutduğu yer;

$\dot{I}_{io}$ – infrastruktur obyektlərinin saxlanması, inkişafı və genişləndirilməsinin illik xərcləri;

Ə – azad torpaq sahəsində yerləşən rəqabət qabiliyyətli konsessiya layihəsinə yönəldilən vəsaitlərin istifadə edilməsi səmərəliliyi əmsalı.

2) Konsessiya layihəsində istifadəsi nəzərdə tutulmayan obyektlər, əgər orpaq sahəsində olarlarsa, onda onların reallaşdırılması dəyərini aşağıdakı düsturla müəyyən etmək olar:

$$D_{k\ell} = X_k + И_{io} \cdot Y_{k \cdot o} : Я - X_{sq}, \qquad (2)$$

harada - $X_{sq}$ – istifadəsi nəzərdə tutulmayan obyektlərin (binaların, qurğuların, kommunikasiyaların) sökülməsi xərcləri.




**Şəkil 2. Mənzil – kommunal sferasında konsessiya infrastruktur**

**obyektlərinin reallaşdırılmasının qiymətləndirilməsi ardıcıllığı**

Ona görə də qəbul edən ölkə konsessiya layihəsinin reallaşdırılmasında binaların, qurğuların və kommunikasiya avadanlıqlarının istifadəsi nəzərdə tutulmayanda, onların sökülməsi xərclərini konsessiya sahibindən almaq lazımdır. Belə sxem üzrə konsessiya layihəsini reallaşdıranda dövlət konsessiya sahibindən layihənin reallaşdırılmasından əvvəl xeyli pul vəsaitləri ala bilər.

3) Əgər konsessiya sahibi torpaq sahəsində mövcud olan tikililələrdən tam və ya qismən istifadə edərsə, onda konsessiya layihəsinin reallaşdırılması dəyərini aşağıdakı düsturla təyin etmək olar:

$$D_{k\ell} = X_k + И_{to} \cdot Y_{k\cdot o} + \vartheta_{o\cdot m} \cdot Я_i , \tag{3}$$

harada - $\vartheta_{o\cdot m}$ – axırıncı iki və ya beş ilin materialları əsasında hesablanan və həyata keçirilən konsessiya obyektləri fəaliyyətindən büdcədənkənar fondlara ayırmalar və büdcə səviyyələrində vergilərin orta ümumi məbləği;

*Əi* – konsessiya layihəsinin ölkədə reallaşdırılmasında istifadə olunan bina və qurğunun, avadanlığın səviyyəsini nəzərə alan, əmsal.

Əgər konsessiya layihəsinin reallaşdırılmasında hər hansı bir fəaliyyət növü rentabelsiz olarsa, onda reallaşdırılan layihənin dəyəri minimum olmalıdır. Belə vəziyyət zərərlə işləyən müəssisələrdə konsessiya sahibləri üçün əlavə stimul ola bilər.

Əgər reallaşdırılan layihənin konsessiya müddəti *1:Ə* və ya çox olarsa, onda aparılan hesablamalar düzgün sayılır. Əgər həyata keçirilən hər hansı fəaliyyət növü, torpaq sahəsinin istifadə olunan müddətindən və ümumiyyətlə, konsessiya müddəti göstərilən kəmiyyətdən azdırsa, onda $D_{k\ell}$ kəmiyyətini *MƏ* əmsalına vurmaq lazımdır, harada $M$ – konsessiyanın müddətidir.

Əgər qəbul edən ölkəyə təqdim olunan konsessiya layihəsinin reallaşdırıl-masının təşəbbüskarı konsessiya sahibinin özüdürsə, onda həmin layihə ən maraqlı hesab olunur, belə halda konsessiya layihəsinin reallaşdırılması dəyərinin hesablanması ən səmərəli və ən yaxşı prinsipə əsasən aparılmalıdır [1, s.113].

**Nəticə**

Konsessiya layihəsinin reallaşdırılmasının qiymətləndirilməsinə yuxarıda verdiyimiz metodiki yanaşmalardan belə nəticə çıxarmaq olar ki, qiymət konsessiya sahibinin ilk ödənişləri vasitəsilə formalaşır. Bu aşağıda göstərilən səbəblərlə bağlıdır:

- istehsal konsessiyasının təşkili üçün bütün investorların (daxili və xarici) əlavə stimullaşdırılması ölkənin iqtisadiyyatı üçün çox əhəmiyyətlidir, çünki ölkəyə istehsalın rəqabət qabiliyyətli yeni texnologiyalar cəlb edilir və istehsalın səmərəli təşkili həyata keçirilir;
- konsessiya obyektləri fəaliyyətinin səmərəliliyini artırır və investisiya resurslarını dövrü olaraq istehsalın gələcək inkişafına yönəldir.

Konsessiya əsasında mənzil – kommunal xidmətlərinə ödənişlər üçün zəmanətlər verilə bilər. Xərclərin hissə–hissə ödənilməsi məqsədilə müəyyən vaxta qədər konsessiya sahibində büdcə dotasiyaları qala bilər.

### *İstifadə edilmiş ədəbiyyat*


**1.** *Чернышов Л.Н. Финансово – экономическая модель ЖКГ в условиях рынка//Городское управление. 1998, № 9 – 12 – с.102 – 114.*

**2.** *Чернышов Л.Н. Основные проблемы экономики и управления недвижимостью в жилищной сфере //Недвижимость. 2002, № 1, 2 – с.45 – 54.*

**3.** *Дадатков Т. Реформа жилищно – коммунального хозяйства //Экономист, 2012, № 6 – с.30 – 37.*



**Р.Ю. Алиев**

*Докторант АзАСУ*

**И.Р.Мамедов**

*Доктор философии по экономике, доц., АзАСУ*


### *Основные направления финансирования деятельности жилищно-коммунальной сферы и методический подход к оценке реализации концессионного проекта*

**Резюме**


*Проведённый анализ позволил определить основные принципы финансовой системы, обеспечивающей развитие исследуемого комплекса. Государственная поддержка совершенствования жилищно-коммунального хозяйства на основе современных методов управления рассматривается по трём направлениям. В исследовании используются модели привлечения иностранных инвестиций на концессионной основе. Экономическая природа концессионных соглашений заключается в заинтересованности государства в реализации проектов при отсутствии у него необходимых для этого ресурсов. Провёденный анализ зарубежного опыта реализации выявил три основные возможные формы их реализации в Азербайджане, которые определяются составом участников и их функциями.*



***Ключевые слова:*** *методы, финансирование, жилищное, коммунальное, сфера, анализ, государство, консессия, модель, совершенствование, поддержка*



**R.Y.Aliyev**

*doctoral Azerbaijani Architecture and Construction University*

**I.R.Mammadov**

*Doctor of Philosophy in Economics*

*Azerbaijan Architecture and Construction University*


### *Main directions of financing the activities of housing and utility sphere and methodical approach to assessing the implementation of the concession* project

**Abstract**


*The analysis led to the identification of the basic principles of financial system ensuring the development of investigated complex. State support for the improvement of housing sectors on the basis of modern management methods is considered in three areas. The study uses models of attracting foreign investment on a concession basis. The economic nature of concession agreements lies in the state's interest in implementing projects, in the absence of the necessary*

*resources for it. The analysis of foreign experience of implementation revealed three main possible forms of their implementation in Azerbaijan, which are determined by the composition of participants and their functions.*

***Keywords:*** *methods, financing, housing, utility, sphere, analysis, state, con session, model, improvement, support*

**Z.Y.Aslanov, K.S.Dadaşova**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

# RESPUBLIKAMIZDA SOSIAL TƏMINATIN BEYNƏLXALQ STANDARTLARA INTEQRASIYASI

**Xülasə**

*Sosial təminatın beynəlxalq standartlara inteqrasiyası təhlil edilmişdir. Göstərilmişdir ki, sosial təminatın universal, regional və dövlətlərarası standartlarını fərqləndirmək olar. Təklif olunmuşdur ki, standartların çoxsəviyyəli olması vətəndaşların sosial hüquqlarını daha dolğun həyata keçirir. Vətəndaşların sosial təminat hüquqlarına dair normalar və aktlar haqqında təkliflər verilmişdir.*

***Açar sözlər:*** *sosial təminat, beynəlxalq standartlar, hüquqi əsaslar, beynəlxalq normalar və aktlar, konvensiya*

Dünyada və regional səviyyədə inteqrasiya proseslərinin genişlənməsi beynəlxalq müqavilələrin hamılıqla qəbul edilmiş norma və prinsiplərinin Azərbaycan qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsi elan edilməsi və onların dövlət daxili hüquq normalarına münasibətdə üstün hüquqi qüvvəyə malik olmasının təsbit edilməsi bu və ya digər qrup ictimai münasibətlərin beynəlxalq hüquqi tənzimlənməsi sahəsində elmi tədqiqatların da sürətləndirilməsini tələb edir.

Bununla yanaşı Azərbaycanın əməklə bağlı beynəlxalq standartların tanınması və həyata keçirilməsi sahəsində aktiv fəaliyyəti, xüsusən həyata keçirilən və daima təkmilləşdirilən sosial islahatlar (pensiya, sosial sığorta, tibbi xidmət və s.) baxımından sosial təminatla bağlı beynəlxalq sənədlərə də analoji yanaşmanı tələb edir.

Beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsipləri beynəlxalq hüququn dövlətlər birliyi tərəfindən tanınan və qəbul edilən ən mühüm imperativ xarakterli normalarıdır ki, onlardan imtina edilməsi yolverilməzdir (məsələn, insan hüquqlarına hörmət və ya beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipləri).

Beynəlxalq hüququn hamılıqla qəbul edilmiş normaları dünya dövlətləri birliyi tərəfindən hüquqi öhdəlik kimi tanınan və qəbul edilən davranış qaydalarıdır. Beləliklə, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsiplərini insan hüquqları sahəsində icrası bütün dövlətlər üçün məcburi olan beynəlxalq standartlar kimi nəzərdən keçirmək olar.

BMT-nin bir çox sənədlərinin adında «standart» terminindən istifadə edilməsi faktıda bunu təsdiq edir. Məsələn, məhbuslarla rəftar edilməsinin minimum standart qaydaları; yetkinlik yaşına çatmayanlara münasibətdə ədalət məhkəməsinin aparılmasına dair BMT-nin minimum standart qaydaları və s.

Azərbaycan Respublikasının beynəlxalq müqavilələri beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsipləri ilə birlikdə respublikamızın hüquq sisteminin ayrılmaz tərkib hissəsi kimi çıxış edir. Beynəlxalq müqavilə müqavilənin özündə nəzərdə tutulmuş və ya danışıqlarda iştirak edən dövlətlər tərəfindən razılaşdırılmış qaydada və vaxtda qüvvəyə minir. Beləliklə, beynəlxalq müqavilə bağlamaqla Azərbaycan öz üzərinə, həmçinin milli qanunvericiliyə zəruri dəyişikliklərin edilməsi yolu ilə icraedilməli olan müəyyən beynəlxalq öhdəliklər götürmöş olur.

Məlumdurki, bir çox hallarda beynəlxalq müqavilənin şərtləri insan hüquqları sahəsində beynəlxalq standartlar kimi nəzərdən keçirilməlidir.

Göstərilənlərlə əlaqədar insan hüquqları sahəsində beynəlxalq standartlar anlayışının müəyyən edilməsi zərurəti yaranır. Bu zaman standartın ümumi anlayışını göstərmək daha məqsədəmüvafiqdir. Standart digər oxşar obyektlərlə müqayisə edilməsi üçün əsas atət, nnümunə, etalon, model kimi göstərilir[1,2]. Azərbaycan dilinin izahlı lüğətində standart sözü öz-ölçüsünə, formasına, keyfiyyətinə görə tələbata cavab verən hər hansı bir şeyin nümunəsi; bir şeyin təşkilində, qurulmasında, hazırlanmasında tətbiq edilən forma, eyni tip; bir-birinə oxşayan şablon kimi ifadə olunur. Bu zaman məsələ beynəlxalq hüquqi standartlarla bağlı olduğundan beynəlxalq hüquqda norma yaradıcılı mexanizminin spesifikliyini də nəzərə almaq lazımdır. Beynəlxalq hüquq normalarının yaradılması vasitələr ibeynəlxalq müqavilələr və beynəlxalq adətlərdir. Q.I.Tunkin göstərir ki, beynəlxalq hüquq normaları dövlətlərarası münasibətlər kontekstində formalaşır.

Beynəlxalq hüquqda beynəlxalq hüququn əsas subyektləri olan dövlətlər üçün hüquq normaları müəyyən edən, dövlətin qanunverici orqanına oxşar orqan yoxdur [3,4,5].

Beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipi fikrimizcə, onların yerinə yetirilməsinin nə dərəcədə real olmasının ilkin qiymətləndirilməsini, dövlətin ikinci nəsil insan hüquqlarının həyata keçirilməsini təşkil etmək imkanını nəzərdə tutur.

Bu müddəalar əhalinin müxtəlif kateqoriyalarının həyat səviyyəsinin bərabərləşdirilməsi və vətəndaşları bazar iqtisadiyyatına xas olan sosial risklərdən qorumaq üçün milli gəlirin yenidənbölüşdürülməsinin həyata keçirildiyi sosial təminat sferası üçün çox vacibdir.

Beləliklə, sosial təminat sistemi milli xarakter daşımaqla dövlətin iqtisadi inkişaf səviyyəsinə, əhalinin sosial-demoqrafik tərkibinin xüsusiyyətlərinə, tarixi və milli-mədəni ənənələrə əsasən qurulur. Lakin bu o demək deyildir ki, baxılan sferada sosial təminat hüququnun həyata keçirilməsinin şərtləri haqqında vətəndaş cəmiyyətinin müasir müddəalarının əks olunduğu beynəlxalq standartlar mövcud ola bilməz və mövcud olmamalıdır. Qloballaşma və inteqrasiya prosesləri dövlətlərarasında, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində təzahür edən qarşılıqlı münasibətlərdə sosial təminatın müəyyən prinsip və normalarının qarşılıqlı təsirini (nüfuz etməsini) nəzərdə tutur. Hətta, sosial təminatın beynəlxalq standartları milli sistemlərin yaradılması üçün nümunə kimi çıxış etməlidir. Bu isə sosial risklərin reallaşdırılması ilə bağlı gözlənilməz hallarla (aclıq, epidemiya, təbii və texnogen xarakterli fövqəladə vəziyyət) mübarizədə bu və ya digər dövlətə köməklik göstərilməsi üçün əsasdır.

Bu baxımdan əmək və sosial təminat sferasında mövcud olan beynəlxalq standartların əlaqələndirilməsi (nisbətlərinin müəyyən edilməsi) məqsədəmüvafiqdir. Sosial təminat sistemindən fərqli olaraq, əmək sferasında beynəlxalq hüquqi standartların müəyyən edilməsi və həyata keçirilməsi dövlətdən mühüm maliyyə xərcləri tələb etmir. Əmək standartlarının dolğun şəkildə həyata keçirilməsi dövlətin təşkilati fəaliyyətindən, həmkarlar təşkilatlarının köməyindən və sosial tərəfdaşlıq sisteminin səmərəli fəaliyyət göstərməsindən, işçinin əmək hüquqlarına riayət edilməsi üzərində ciddi nəzarətin həyata keçirilməsindən və pozulmuş hüquqların müdafiəsi sisteminin yaradılmasından asılıdır. Beynəlxalq hüquqi tənzimetmə mexanizmin də əmək üzrə qadağalar və məhdudiyyətlər əsasən əmək müqaviləsinin tərəfi kimi işə götürənə yönəlmişdir. Beləki, məhz onlar əmək prosesində işçinin əmək hüquqlarının həyata keçirilməsini təmin etməlidirlər. Buna görə də əmək sahəsində beynəlxalq öhdəliklər götürən dövlət bunu işə götürənlərə elan etməli və onların həyata keçirilməsini təmin etməlidir.

Sosial təminat hüquq münasibətlərin də vəzifəli tərəf kimi özünün müvafiq orqanlarının şəxsində dövlət çıxış edir. Fikrimizcə, bəzi dövlətlərin, o cümlədən Azərbaycan Respublikasının sosial təminat sahəsində əsas beynəlxalq sənədlərin ratifikasiya edilməsi məsələlərinə bir qədər ehtiyatla yanaşması məhz bununla izah olunur.

Eyni zamanda Beynəlxalq əmək Təşkilatının əmək münasibətlərinin tənzimlənməsinə həsr edilmiş əsas Konvensiyaları respublikamız tərəfindən ratifikasiya edilmişdir və bu proses davametməkdədir [1,2].

Qeyd olunanlara əsasən sosial təminatın beynəlxalq standartlarının əsas əlamətlərini müəyyən etmək olar. Birincisi, öz forma və normativ qaydada təsbit edilməsi baxımından onlar müqavilə formasında olan beynəlxalq hüquq normalarında əks olunur. Ikincisi, onlar müvafiq sferada dövlətin beynəlxalq öhdəliklərini ifadə edir. Üçüncüsü, onlar əhaliyə göstərilən sosial yardımın şərtləri və səviyyəsi ilə bağlı müasir sivil cəmiyyətin ideyalarına uyğun gələn milli sosial təminat sistem-lərinin yaradılmasına yönəldilmişdir.

Beləliklə, sosial təminatın beynəlxalq standartları dedikdə müasir ümumbəşəri tələblərə cavab verən qaydada və şərtlərlə vətəndaşların sosial təminat hüququnun daha səmərəli şəkildə həyata keçirilməsi məqsədi ilə milli sosial təminat sisteminin yaradılması və fəaliyyəti üzrə dövlət tərəfindən qəbul edilən və beynəlxalq hüquq normalarında təsbit edilən qarşılıqlı öhdəliklər başa düşülür.

Dövlət tərəfindən qəbul edilən öhdəliklərin xarakterindən və detallaşdırılması dərəcəsindən asılı olaraq sosial təminatın beynəlxalq standartlarını ümumi və xüsusi standartlara ayırmaq olar. Ümumi standartlar insan hüquqları haqqında universal və regional xarakterli beynəlxalq aktlarda təsbit edilmişdir və insanların sosial təminat hüququnu, onun həyata keçirilməsi şərtlərini və təminatlı sosial yardımın səviyyəsini özündə əks etdirir.

Fikrimizcə, sosial təminatın ümumi standartlarına Ümumdünya Insan Hüquqlar ıbəyannaməsi, Iqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt, Avropa Sosial Xartiyası kimi beynəlxalq sənədlərin müddəalarını aid etmək olar.

Məsələn, BMT Baş Assambleyası tərəfindən 10 dekabr 1948-ci ildə qəbul edilmiş Ümumdünya insan hüquqları Bəyannaməsinin 23-cü maddəsində də hər bir kəsin əmək, sərbəst surətdə iş seçmək, ədalətli və əlverişli iş şəraiti və işsizlikdən müdafiəolunmaq, hər bir işləyən kəsin özü və ailəsi üçün insan ləyaqətinə yaraşan mövcudluğu təmin edən və zəruri olduqda digər sosial müdafiə vasitələri ilə tamamlanan ədalətli və qənaətbəxş haqq almaq hüququ təsbit edilmişdir.

Bu məqalə kontekstində hər bir kəsin qida, paltar, ev və tibbi xidmət və zəruri sosial xidmətlər və işsizlik, xəstəlik, əlillik, dulluq, qocalıq hallarında və ya özündən asılı olmayaraq yaşayış vasitələrinin çatışmadığı şəraitlərdə təminat hüququ da daxil olmaqla özünün və ailəsinin sağlamlığı və rifahı üçün zəruri olan layiqli həyat səviyyəsi hüququ (Bəyannamənin 25-ci maddəsi) daha çox maraq doğurur.

Beləliklə, sosial təminat hüququ məntiqi olaraq müəyyən həyat səviyyəsinə olan hüquqdan irəli gəlir.

BMT Baş Assambleyası tərəfindən 16 dekabr 1966-cı ildə qəbul edilmiş Iqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın 9-cu maddəsində sosial sığorta da daxil olmaqla hər kəsin sosial təminat hüququ təsbit edilir. BMT-nin xüsusi sənədlərində əhalinin ayrı-ayrı kateqoriyalarının (qadınların, uşaqların, əlillərin, əqli cəhətdən inkişafdan geri qalanların, işçi-miqrantların və b.) sosial təminat hüququ ilə bağlı müddəalar vardır.

Sosial təminatın ümumi standartları regional xarakterli aktlarda konkretləşdirilir.

Regional xarakterli aktlar içərisində əsas yeri Avropa Şurası tərəfindən qəbul edilmiş Avropa Sosial Xartiyası tutur. Həmin Xartiyanın 12-ci maddəsində dövlətlərin «Sosial təminatın minimal normaları haqqında» BƏT-in 102 №-li Konvensiyasının (göstərilən Xartiyada Avropa Sosial Təminat Məcəlləsinin tələblərinə uyğunluq əsas götürülür) ratifikasiya edilməsi üçün tələb

olunanlardan aşağı olmamaqla, kifayət qədər qənaətbəxş səviyyədə sosial təminat sistemi yaratmaq, habelə Xartiyanı ratifikasiya etmiş dövlətlərin vətəndaşları üçün istənilən yerə hərəkət etmələrindən (yerlərini dəyişmələrindən) asılı olmayaraq müstəsna hüquqlarının saxlanması daxil olmaqla, vahid rejimin təmin edilməsinə dair ikitərəfli və çoxtərəfli sazişlərin bağlanması, eləcə də sığorta dövrlərinin toplanması kimi müəyyən tədbirlər görməsi öhdəliyi təsbit edilmişdir. Avropa Sosial Xartiyasının 13-cü maddəsində sosial və tibbi yardım hüququ, 14-cü maddəsində isə sosial xidmət müəssisələrinin sosial xidmətlərindən yararlanmaq hüququ təsbit edilmişdir. Xartiyanın bir sıra normaları əhalinin daha az müdafiə olunan kateqoriyalarının (əlillərin, ailə öhdəliyi olan şəxslərin, uşaqların, əməkçi-miqrantların, yoxsulların və b.) sosial təminat almaq da üstünlük hüququna malik olmaları məsələsinə həsr olunmuşdur.

Vətəndaşların sosial təminat hüququna dair normalar Müstəqil Dövlətlər Birliyinin aktlarında da təsbit edilmişdir. Məsələn, «Insan hüquqları və əsas azadlıqları haqqında» MDB Konvensiyası dövlətlərin əhalinin sağlamlığının mühafizəsi sahəsində tədbirlər görməsi öhdəliyi nəzərdə tutulur, hər kəsin sosial sığortada daxil olmaqla sosial təminat hüququnu təsbit edir, müdafiəsi dövlət tərəfindən təmin edilməli olan sosial risklərin (yaş, xəstəlik, əlillik, ailə başçısının itirilməsi, uşaqların tərbiyə edilməsi və s.) siyahısı müəyyən edilir.

Sosial təminatın xüsusi standartları aşağıdakı məsələlər üzrə dövlətin beynəlxalq öhdəliklərini ifadə edir: sosial risklərin növləri, sosial təminatın növləri, sosial təminatın təqdim edilməsi şərtləri, sosial təminatın səviyyəsi (həcmi), sosial təminatın təqdim edilməsi qaydası. Sosial təminatın xüsusi beynəlxalq standartlarının mənbələri qismində ilk öncə BƏT-in aktlar ıçıxış edir. BƏT-in sosial təminat sahəsində əsas sənədlərinə aşağıdakılar daxildir: «Sosial siyasətin əsas məqsədləri və normaları haqqında» 117 №-li Konvensiya (1962); «Sosial təminatın minimum normaları haqqında» 102 №-li Konvensiya (1952); «Sosial təminat sahəsində hüquq bərabərliyi haqqında» 118 №-li Konvensiya (1962); «Sosial təminat sahəsində hüquqların saxlanması haqqında» 157 №-li Konvensiya (1982) və s.

Sosial təminatın minimum normaları adlanan xüsusi xarakterli ən mühüm beynəlxalq standartlar BƏT-in 102 №-li Konvensiyasında təsbit edilmişdir. Konvensiya tibbi xidmətin təşkili, xəstəliyə, işsizliyə, qocalığa, əməkşikəstliyinə və ya peşə xəstəliyinə görə müavinətlər, həmçinin ailə müavinətləri, hamiləliyə və doğuma, əlilliyə və ailə başçısını itirməyə görə müavinətlər daxil olmaqla sosial təminatın bütün növlərini əhatə edir.

1964-cü ildə qəbul edilmiş və sosial təminatın səviyyəsinin artırılması üçün sonradan yenidən baxılmış Avropa Sosial Təminat Məcəlləsi bu sahədə Avropa Şurasının üzvü olan dövlətlərin öz üzərinə götürdükləri öhdəliklər qismində regional standartları təsbit edir. Burada tibbi xidmət, xəstəliyə görə müavinət, işsizliyə görə müavinət, pensiya, istehsalat zədəsi almağa görə müavinət, uşaq müavinəti, doğuma görə müavinət, əlilliyə görə müavinət kimi sosial təminat növlərinin standartları, habelə dövri ödəmələrin təqdim edilməsi standartları müəyyən edilir.

Sosial təminatın sosial standartları MDB-nin bir sıra aktlarında öz əksini tapmışdır. Sosial təminat sahəsində MDB-nin əsas sənədləri bunlardır: «MDB-nin iştirakçısı olan dövlətlərin vətəndaşlarının pensiya təminat sahəsində hüquqlarının təminatları haqqında» 13 mart 1992-ci il tarixli Saziş, «Sosial müavinətlərin, uşaqlı ailələrin kompensasiya ödəmələlərinin və alimentlərin ödənilməsi sahəsində vətəndaşların hüquqlarının təminatları haqqında» 9 sentyabr 1994-cü il tarixli Saziş, «Çernobıl və digər radiasiya fəlakətləri və qəzaları, habelə sınaqlar nəticəsində radiasiya təsirinə məruz qalmış vətəndaşların sağlamlığının sosial müdafiəsi və mühafizəsi haqqında» 9 sentyabr 1994-cü il tarixli Saziş, «Böyük Vətən müharibəsinin iştirakçıları və

əlilləri, digər dövlətlərin ərazisində döyüş əməliyyatlarının iştirakçıları, ölmüş hərbi qulluqçuların ailələri üçün güzəşt və təminatların qarşılıqlı tanınması haqqında» 15 aprel 1994-cü il tarixli Saziş, «Işçilərin öz əmək funksiyalarını icraetmələri ilə bağlı şikəstlik, peşə xəstəliyi və ya sağlamlığın digər şəkildə pozulması nəticəsində işçiyə vurulan zərərin əvəzinin ödənilməsi hüququnun qarşılıqlı tanınması haqqında» 9 sentyabr 1994-cü il tarixli Saziş.

«MDB-nin iştirakçısı olan dövlətlərin vətəndaşlarının pensiya təminatı sahəsində hüquqlarının təminatları haqqında» Sazişin preambulasında qeyd edilir ki, hər bir dövlət öz vətən-daşlarının pensiya təminatına görə bilavasitə məsuliyyət daşımalıdır.İkitərəfli sazişlərdə başqa qayda nəzərdə tutulmayıbsa, qarşılıqlı hesablaşmalar aparılmır. Pensiya, o cümlədən güzəştli şərtlərlə və yaşa görə pensiya təyin edilən zaman bu dövlətlərdən istənilən birinin ərazisində, habelə bu saziş qüvvəyə minənə qədər keçmiş SSRI ərazisində qazanılmış əmək stajı nəzərə alınır[3,4,5].

Bundan başqa nəzərdə tutulur ki, iştirakçı dövlətlər pensiya təminatı sahəsində qanunvericiliklərinin uyğunlaşdırılması siyasətini həyata keçirəcəklər.

Lakin reallıqda hər şey daha mürəkkəb oldu. Müstəqil dövlətlərin iqtisadiyyatı üçün ağır yük olan pensiya sistemi yeni maliyyə vəsaitlərinin cəlb edilməsini, pensiya büdcəsinə son dərəcə qənaət edilməsini və bunların nəticəsində pensiya təminatı şərtlərinin sərtləşdirilməsini tələb etdi. Qeyd edilənlərlə əlaqədar olaraq MDB-nin üzvü olan dövlətlərdə pensiya islahatlarının tempi və onların həyata keçirilməsi üsulları bir-birindən əhəmiyyətli şəkildə fərqlənir. Buna görə də pensiya hüquqlarının saxlanması problemi 1992-ci il Sazişinin bağlanmasından sonra baş verən sosial-iqtisadi və siyasi dəyişikliklərə görə, həmçinin respublikamızın pensiya qanunvericiliyinin yenilənməsi ilə əlaqədar Azərbaycan üçün aktuallığını saxlayır.

Beləki, «əmək pensiyaları haqqında» Azərbaycan Respublikası Qanununda nəzərdə tutulur ki, Azərbaycan Respublikası ərazisində daimi yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin bu Qanunla nəzərdə tutulmuş şərtlərlə Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər əsaslarla əmək pensiyası təminatı hüququ vardır. Belə hallarda sığorta stajının hesablanması məsələsi daha mühüm rol oynayır. Sosial sığorta stajı əmək pensiyası hüququnun müəyyən edilməsi zamanı nəzərə alınaniş və ya digər fəaliyyət dövrlərinin (müvafiq icra hakimiyyəti orqanına məcburi dövlət sosial sığorta haqları ödəmək şərti ilə) və eləcə də müvafiq qanunvericiliklə sığorta stajına daxil edilən digər dövrlərin məcmusudur.

Qanunvericiliklə müəyyən edilmiş qaydada məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi şərtilə mülkiyyət formasından, əmək fəaliyyətinin xarakterindən və müddətindən asılı olmayaraq müəssisə, idarə və təşkilatlarda əməkmüqaviləsi (kontraktı) əsasında işləyənlərin, hərbi qulluqçuların, eləcə də hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin, vəzifəyə seçilmiş və ya təyin edilmiş şəxsləriniş, hərbi xidmət və ya digər fəaliyyə tmüddətləri sığorta stajına daxil edilir. Vətəndaşların başqa dövlətlərin ərazisində iş dövrü Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə və ya həmin dövlətlərlə bağlanmış dövlətlərarası müqavilələrdə başqa hal nəzərdə tutulmayıbsa,müvafiq icra hakimiyyəti orqanına məcburi dövlət sosial sığorta haqları ödənildikdə, sığorta stajına daxil edilir.

Fikrimizcə, MDB ölkələri vətəndaşlarının pensiya təminatında sığorta prinsiplərinin inkişafı, xüsusən yığım mexanizminin inkişafı ilə müvafiq münasibətlərin daha geniş tənzim edilməsi zərurətini artırır. Azərbaycan Respublikasının qanunvericilik aktlarında sosial təminatın və sosial sığortanın yalnız ümumi müddəalarını, əsas prinsiplərini təsbit etmək lazımdır. Konkret şəkildə isə bu məsələlər mühacirlərin mövcud və proqnozlaşdırılan sayı, iqtisadi əməkdaşlığın inkişaf səviyyəsi və digər faktorlar nəzərə alınmaqla bağlanmış ikitərəfli və çoxtərəfli beynəlxalq saziş və müqavilələrlə tənzimlənməlidir.

Bu sazişlərə misal olaraq AR Hökuməti ilə Qazaxıstan Hökuməti arasında bağlanmış və 1996-cı ildən qüvvəyə minmiş «Pensiya təminatı haqqında» Sazişi göstərmək olar. Saziş bir dövlətin (tərəfin) ərazisində daimi yaşayan və digər dövlətin (tərəfin) ərazisinə daimi yaşayış yerinə köçən şəxslərin pensiya təminatını tənzim edir. Bu, yaşayış yeri üzrə dövlətin vəsaitləri hesabına və onun idarələri tərəfindən həyata keçirilir. Pensiyaçı köçdüyü halda növbəti ayın birindən etibarən əvvəlki yaşayış yerində pensiyanın ödənilməsi dayandırılır, sonra isə müvafiq öhdəliyi yaşayış yerinin dövləti öz üzərinə götürür. Pensiya təyin edilərkən bu saziş qüvvəyə minənə qədər hər bir dövlətin qanunvericiliyinə əsasən hesablanmış sığorta (əmək) stajı da nəzərə alınır. AR Hökuməti ilə Gürcüstan Respublikası və Moldova Respublikası Hökumətləri arasında bağlanmış hökumətlərarası sazişlərdə də vətəndaşların pensiya təminatının həyata keçirilməsi zamanı qarşılıqlı hesablaşmaların aparılması nəzərdə tutulmur. Lakin bu sazişlərə dövlətlər tərəfindən xitam verildikdə həmins azişlər əsasında yaranmış pensiya təminatı hüququ saxlanılır. Göründüyükimi, bu sazişlərin xitam edilməsi və pensiya təminatının maliyyələşdirilməsi məsələsində qarşılıqlı hesablaşmaların tətbiqinə keçid imkanları istisna deyil. Onu da nəzərə almaq lazımdır ki, vətəndaşın pensiya hüququ uzun müddət ərzində formalaşır və pensiya təminatının qaydaları kifayət qədər stabil olmalıdır. əks halda əldə edilmiş pensiya hüququ təhlükə qarşısında qalmışolur.

Dövlətlərarası birlik çərçivəsindən kənar bağlanmış bu sazişlərdə sosial təminatın beynəlxalq standartlarını təşkil edir.

Yuxarıda göstərilənlər belə qeyd etməyə əsas verir ki, sosial təminatın beynəlxalq standartları onların müəyyən edildiyi səviyyəyə görə təsnif olunur. Bu meyar əsasında sosial təminatın universal, regional və dövlətlərarası standartlarını fərqləndirmək olar. Hesab edilir ki, standartların çox səviyyəli olması vətəndaşların sosial hüquqlarının daha dolğun şəkildə həyata keçirilməsini təmin etməlidir. Lakin Azərbaycan Respublikası tərəfindən beynəlxalq müqavilələrin bağlanması praktikası göstərir ki, bu tələbə heç də həmişə sonadək riayət olunmur. Məsələn, pensiya təminatı sahəsində ikitərəfli müqavilələr BƏT tərəfindən tövsiyə olunanlarla müqayisədə pensiya hüquqlarının həyata keçirilməsi şərtlərini sərtləşdirir.

## *İstifadə edilmiş ədəbiyyat*


1. *Məmmədov N.R. Standartlaşdırmanın əsasları.Dərslik. Bakı: Elm,2002,388 s.*

2. *Əliyev M.N. Sosialtəminathüququ: Dərslik. Bakı: Adiloğlu, 2007*

3. *Захаров М.Л. Тучкова Э.Г. Право социального обеспечения России: Учебник. М.: 2004.*

4. *Киселев И.Я. Сравнительное и международное трудовое право: Учебник для вузов. М.: 1999.*

5. *Тункин Г.И. Теория международного права: Монография. М.: 2000.*

**З.Ю.Асланов К.С.Дадашова**
*Азербайджанский Государственный Экономический Университет*

## *Интеграция социальной обеспеченности в международные стандарты в Республике*

**Резюме**

*В статье раскрывается значение международных стандартов социального обеспечения и даётся их трактовка, как обязательства, которое государство берет на себя в соответствии с международно-правовыми нормами по созданию и действию национальных систем социальног обеспечения в условиях цивильных обществ. В статье международные стандарты социального обеспечения классифицируются по общим и особым видам и каждый вид анализируется на основе международно-правовых актов. В статье автор в связи с усовершенствованием законодательства обосновывает необходимость ратификации международных актов по социальному обеспечению.*

***Ключевые слова:*** *социальное обеспечение, международные стандарты, законодательство, международные акты, конвенсия*

**Z.Y.Aslanov**
**K.S.Dadashova**
*Azerbaijan State Economic University*

## *İnternational standartds of social security inteqration*

**Abstract**

*In article, it isshown values of the international standards of social security and it isgiven its concepts asthe obligation which takesthe states on itself in conformity ith international legal norms after creation and action of national systems of social security in conditions of civil societies. In article the international standards of social security it is classified on the general and special kinds and each kind is analyzed on the basis of international legal acts. In article, the author in connection with improvement of the legislation proves necessity of ratification of the international acts on social security.*

***Key words:*** *international standards,social security, international legal norms, international legal acts,international acts, connection*

# MÜNDƏRİCAT


**İnvestisiyalar və inşaatda innovasiya fəaliyyəti**

**M.A.MƏMMƏDOV, N.RAMAZANLI**
Tikintidə investisiya fəaliyyətinin və strukturunun dövlət tənzimlənməsinin metodoloji prinsipləri........................................................................................ **6**

**R.M.ƏLİYEV, İLTİFAT VƏZİFƏ DƏMİRÇİ MƏHƏRRƏM OĞLU**
Əsas kapitala yönəldilən investisiyaların dinamıkasının xüsusiyyətləri.............. **13**

**Tikinti müəssisələrinin iqtisadiyyatı, sahibkarlıq fəaliyyəti və menecment**

**A.A.NAJIMOV**
İmportance of logistics and supply chain management at the sustainable development of industrial enterprises................................................................ **20**

**B.H.ŞİRİNOV, N.Ə.KAZIMOV**
Tikinti müəssisələrində dövriyyə kapitalının normalaşdırılması metodları........ **28**

**A.M.ƏLİYEV, MOHSEN ALİ OĞLU RAJABİMATAK**
Sığorta şirkətlərinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsinin idarəetmə üsulları......................................................................................................... **32**

**M.A. MƏMMƏDOV, T.K.KULU, A.R.BABAYEV**
Avropanın enerji təhlükəsizliyinin təminatında Azərbaycanın rolu....................... **39**

**H.A.XƏLİLOV, MUSTAFA MİYNAT, R.M. MƏMMƏDOV, R.A.BABAYEV**
Petrolle zengin ülkelerde çeşitlendirilmiş ihraçat potansiyelinin oluşturulması: çağdaş eğilimler ve Azerbaycan için fırsatlar........................................................ **50**

**Azərbaycanda bank sektorunun inkişafı**

**L.Ə.ƏLƏKBƏROVA, Ə.İSAQOV, S.TALIBLI**
Oyunlar nəzəriyyəsi çərçivəsində Azərbaycan bank sektorunda strategiyaların tərtibi......................................................................................................... **60**

**M.L.ƏLİYEVA, R.R.MİSİRLİ**
Managing security for oracle database users and applications in banking sector... **68**

**А.А.АБАСОВА,Ф.А.МАМЕДОВА**
Место и роль виртуальной валюты в структурах «private banking………….. **74**

**K.A.AĞAYEVA**
Büdcə-vergi nəzarətinin maliyyə nəzarəti sistemində rolu.................................... **78**

**Şəhər təsərrüfatı və ekologiya**

**İ.R.MƏMMƏDOV, R.Y.ƏLİYEV**
Azərbaycanda mənzil-kommunal sferası fəaliyyətinin maliyyələşdirilməsinin əsas istiqamətləri və konsessiya layihəsinin reallaşdırılmasının qiymətləndirilməsinə metodiki yanaşma........................................................................... **83**

**Beynəlxalq təcrübə və əməkdaşlıq**

**Z.Y. ASLANOV, K.S.DADAŞOVA**
Respublikamızda sosial təminatın beynəlxalq stendartlara inteqrasiyası............ **92**

## CONTENTS

### Investment and innovation in construction

**M.A.MAMMADOV, N.RAMAZANLI**
Methodological principles of state regulation of investment activity and structure of construction........................................................................................................ **6**

**R.M.ALİYEV, İLTİFAT VEZİFE DEMIRCHİ**
Features of the dynamics of investments directed to fixed assets………………… **13**


### Construction economics, entrepreneurship and management

**A.A.NƏCİMOV**
İmportance of logistics and supply chain management at the sustainable development of industrial enterprises......................................................................................... **20**

**B.Q.SHİRİNOV, N.A.KAZIMOV**
Fixed capitalization methods in construction companies………………………….. **28**

**A.M.ALİYEV, MOHSEN ALİ RAJABİMATAK**
Managerial approaches of growth of competitiveness of insurance companies... **32**

**M.A.MAMMADOV, T.K.KULU, R.A.BABAYEV**
The Role of Azerbaijan in ensuring Europe'senergy security………………………… **39**

**H.A.KHALİLOV, MUSTAFA MİYNAT, R.M.MAMMADOV, R.A.BABAYEV**
Creation of Diversified Export Potential in Oil-Rich Countries: Contemporary Trends and Opportunities for Azerbaijan……………………………………………… **50**


### Development of the banking sector of Azerbaijan

**L.A.ALEKPEROVA, A.İSAQOV, S.TALIBLI**
Development of strategies in the banking sector of Azerbaijan within the framework of game theory…………………………………………………… **60**

**M.L.ƏLİYEVA, R.R.MİSİRLİ**
Managing security for oracle database users and applications in banking sector... **68**

**A.A.ABASOVA, F.A.MAMMADOVA**
The place of virtual currency in the structures of "private banking"....................... **74**

**K.A.AGHAEVA**
The role of fiscal control in the system of financial regulation…………………… **78**


### Urban agriculture and ecology

**İ.R.MAMMADOV, R.Y.ALİYEV**
Main directions of financing the activities of housing and utility sphere and methodical approach to assessing the implementation of the concession project


### International experience and cooperation

**Z.Y. ASLANOV, K.S.DADASHOVA** **83**
İnternational standartds of social security inteqration.......................................

# LOMBARD KREDİTİ

- 18 aya-dək
- Yüksək qiymətləndirmə
- Aşağı faiz
- 10 dəqiqə ərzində kredit

## Daimi müştərilərə endirim



Ad, Soyadı : _______________

Əlaqə nömrəsi: ____________________

**ProKredit**

Tel: 012-440 09 29

Ünvan: Xan Şuşinski küç 20, Bakı, Azərbaycan

E-mail: info@prokredit.az

**ProKredit**

# PUL LAZIMDIR?

# 18 AYA-DƏK LOMBARD KREDİTLƏRİ



Xan Şuşinski küç 20, Bakı, Azərbaycan 012-440 09 29

**Hörmətli Dostlar,**

**Azərbaycan Marketinq Cəmiyyəti (AMC) Bakıda yeni ACCA kurslarının açılışını elan edir!**

ACCA (İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiyasiyası) peşəkar mühasiblər üçün dünyada ən geniş yayılmış beynəlxalq assosiyasiyadır. ACCA 170 ölkədə 500 min tələbə və üzvü olan dünyanın ən böyük və ən sürətlə inkişaf edən beynəlxalq mühasibat təşkilatıdır. Onun məqsədi dünya üzrə mühasibatlıq, maliyyə və idarəetmə sahəsində uğurlu karyera qurmaq istəyən tələbkar, qabiliyyətli və ambisiyalı insanlar üçün ən yüksək səviyyəli kvalifikasiyalar təklif etməkdir. Beynəlxalq Təşkilat olan ACCA dünyanın öndə gedən beynəlxalq şirkətlərində rəğbət qazanıb və işə qəbul zamanı yüksək qiymətləndirir. ACCA 100 ofis və mərkəz və işçilərin yüksək standartlara uyğun təlimini və inkişafını təmin edən 7,400 Təsdiqlənmiş İşçilər şəbəkəsi vasitəsilə işləyir.

Azərbaycan Marketinq Cəmiyyəti (AMC) 2000-ci ilin iyulun 7-də qurulmuşdur. AMC-nin Təsis Konfransında yerli və xarici şirkətlərin, qeyri kommersiya təşkilatlarının nümayəndələri, marketinq, biznesin idarə olunması və digər sahələrdə çalışan mütəxəssislər iştirak etmişlər.

AMC sürətlə böyüyür və inkişaf edir. Bu günə qədər AMC 80-dən çox müxtəlif layihələr həyata keçirib. Hal-hazırda AMC sosial və intellektual fəaliyyətinə görə bir çox şirkət və müəssisələrlə iş birliyi qurub. Azərbaycan Marketinq Cəmiyyəti hökümət və beynəlxalq müəssissələrin nümayəndələri ilə (əsasən də Dünya İqtisadi Forumu, Dünya Bankı, ITC WTO, USAID, UNDP, Avrasiya Fondu, Oxfam, CHF, IREX, IRC, SOROS Fondu, CRS, Counterpart International, ABŞ Ticarət Palatası) yaxın əlaqələr və tərəfdaşlıq saxlayır və müxtəlif layihələr həyata keçirir.

**Kurs haqqında məlumat:**

**Tələbələr üçün endirimlər!**

- Hər kursun davamlılığı: 6 həftə;
- Hər kursda 12 dərs;
- Müəllimlər: ancaq yüksək ixtisaslı, təhsil sahəsində təcrübəli Big 4 peşəkarları;
- Uğurunuz üçün fərdi diqqət təmin olunur;
- Qiymət: AZN 400. Tələbələr üçün endirim: 12%;
- Zəmanət:
  - Heç bir dərsi buraxmasanız və sınaq imtahanlarında minimum keçid balı yığsanız əminliklə deyə bilərik ki, birinci dəfədən imtahanı verəcəksiniz! Imtahanı verə bilməsəniz, hazırlıq kursunu birdə pulsuz keçə bilərsiniz və AMC növbəti imtahan haqqını ödəyəcək;
  - Yüksək keyfiyyətli tədris zəmanəti.

Kurslar Oktyabrın 29-da başlayırlarar. Yerlər məhduddur!

Tezliklə görüşməyimizə ümüdvarıq!

**Əlaqə üçün məlumat**
Mobil: 0503056556
Telefon: 4973913
E-mail: office@marketing.az

*ACCA ilə yeni imkanlar aşkar edin!*

**Dear friends,**

**Azerbaijan Marketing Society (AMS) is delighted to announce opening of new ACCA courses in Baku!**

ACCA (the Association of Chartered Certified Accountants) is the global body for professional accountants. It is the largest and fastest growing qualification in the world, with over 500,000 members and students in 170 countries. ACCA aim to offer business-relevant, first-choice qualifications to people of application, ability and ambition around the world who seek a rewarding career in accountancy, finance and management. The ACCA qualification is in high demand by leading international employers around the world. ACCA work through a network of 100 offices and centres and 7,400 Approved Employers worldwide, who provide high standards of employee learning and development.

The Azerbaijan Marketing Society was established in July 7, 2000 in Baku with the participation of specialists representing the marketing departments of different local and multinational companies operating in Azerbaijan.

AMS is rapidly growing and developing. Up to this day AMC has implemented over 80 various projects. At present Azerbaijan Marketing Society with its social and intellectual activity has become a business partner to many companies and organizations. Azerbaijan Marketing Society maintains close relations and partnership with government and representatives of international organizations, especially World Economic Forum, World Bank, ITC WTO, USAID, UNDP, Eurasia Foundation, Oxfam, CHF, IREX, IRC, SOROS Foundation, CRS, Counterpart International, US Department of Commerce and carries out various projects.

**Course information:**

**Discounts for students!**

- Duration of each course: 6 weeks;
- 12 lessons per each course;
- Tutors: only highly qualified, Big 4 professionals experienced in teaching;
- Individual attention for your success is guaranteed;
- Price: AZN 400. Discount for students: 12%;
- Guarantees:
  - Guarantee of passing an exam at the first attempt! Subject to complete attendance, without missing any class and scoring minimum pass mark in mock exams. If you did not pass, then AMS will allow you to retake the preparatory course free of charge and will pay for your next resit exam fee;
  - Guarantee of high quality teaching.

Courses start on October 29th. There are limited places per each class!

Hope to see you soon!

**Contact details**
Mobile: 0503056556
Phone: 4973913
E-mail: office@marketing.az

*Progress your career by becoming an ACCA member!*

Məqalələr aşağıdakı ünvana göndərilir:

Azərbaycan, Bakı şəh., AZ 1073, Ayna Sultanova küçəsi 11,
Azərbaycan Memarlıq və İnşaat Universiteti, tel.: (+99412)538 92 83
daxili – 539 10 45
E-mail: cej@azmiu.edu.az

Статьи направляются по адресу:
Азербайджан, г. Баку, AZ 1073, ул. Айны Султановой 11,
Азербайджанский Архитектурно-строительный Университет,
Тел.: (+99412)5389283; внутренний – 539 10 45
E-mail: cej@azmiu.edu.az

The articles should be sending to the following address:
11, Ayna Sultanova Str. Baku, AZ 1073 Azerbaijan
Azerbaijan Architecture and Construction University
Tel: (+99412)538 92 83; Interior - 539 10 45
E-mail: cej@azmiu.edu.az



Tərtib edən: Azərbaycan Memarlıq və İnşaat Universitetinin “Xidmət sahələrinin iqtisadiyyatı və menecment” kafedrası. Tel: (+99412) 538 92 83

AR Ədliyyə Nazirliyinin Mətbu nəşrlərin reyestrinə daxil edilmə nömrəsi №4024 [

Beynəlxalq standart eyniləşdirmə nömrəsi - İSSN 2519-2507 - 17.10.2016 tarixində verilib

*Каьыз форматы 60х84 1/8,*
*Чап вяряги: 10.9*
*Сифариш № 51. Тираж 100.*

***AzMİU***
***“Nəşriyyat – Poliqrafiya Mərkəzi”***
*тел.: (012) 539 07 17*
***E-mail: azmiu-npm@mail.ru***